AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

## SCIENTIFIC WORK

International Scientific Journal

## ELMİ QAYNAQLAR
## XXV RESPUBLİKA ELMİ KONFRANSI

## SCIENTIFIC RESOURCES
## XXV REPUBLICAN SCIENTIFIC CONFERENCE

# ELMİ İŞ
**Beynəlxalq Elmi Jurnal**

## ELMİ QAYNAQLAR
## XXV RESPUBLİKA ELMİ KONFRANSI

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

# SCIENTIFIC WORK
**International Scientific Journal**

## SCIENTIFIC RESOURCES
## XXV REPUBLICAN SCIENTIFIC CONFERENCE

**15 yanvar 2026**

# Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.konfrans@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan

### Sədr müavinləri

**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

### Məsul katib

**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Əliəddin ABBASOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Qulu MƏHƏRRƏMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan
**Prof. Dr. Ülviyyə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA**, Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevda AXUNDOVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOVB**,Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA**, ARETN Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan

### Deputy chairmen

**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Iradə KARIMOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### Executive secretary

**Assoc. Prof. Dr. Aydan XANDAN**, Baku State University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Aliaddin ABBASOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Gulu MAHARRAMLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV**, Karabakh University / Azerbaijan
**Prof. Dr. Ulviyya HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, MSERA Institute of Botany / Azerbaijan
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Nakhchivan Teacher Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU**, Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shalala ZEYNALOVA**, Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Sadig GARAYEV**, MSERA Institute of Botany / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV**, Azerbaijan State Maritime Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA**, Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rafiq IBRAHIMOV**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevda AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alia RZAYEVA**, MSERA Institute of Natural Resources / Azerbaijan

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Nurlana Kazımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9383-567X
nurlana_kazimova67@mail.ru

## Süni intellektin yaranması və başqa elm sahələri ilə əlaqələri

***Açar sözlər:*** *süni intellekt, kompüter proqramları, texnologiya, dil, tədqiqat*

***Keywords:*** *artificial intelligence, computer programs, technology, language, research*

Süni intellekt ənənəvi olaraq insanın etməli olduğu, insana xas yaradıcı funksiyanı yerinə yetirə biləcək intellektual sistem, intellektual maşınların, xüsusilə intellektual kompüter proqramlarının yaradılması elmi və texnologiyasıdır. İntellektual sistem dedikdə, həmin sistemin yaddaşında saxlanan, ənənəvi olaraq yaradıcı proses kimi səciyyələndirilən məsələləri həll etməyə qabil olan texniki və ya proqram sistemi başa düşülür. Süni intellektin yaranma tarixi, mahiyyəti, tətbiq sahələri, əhəmiyyəti və inkişaf perspektivləri ilə bağlı bir çox araşdırmalar aparılmış, tədqiqat əsərləri yazılmışdır. Məlumdur ki, süni intellekt və milli dil korpuslarının yaradılması sahəsində bir çox dünya ölkələrində tədqiqatlar aparılmışdır. Aparılan işləri təhlil etməklə Azərbaycan dilinin materialında süni intellekt problemləri

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

çərçivəsində tətbiqi və nəzəri linqvistik texnologiyaların hazırlanması, bu zəmində Azərbaycan dilinin milli korpusunun ayrı-ayrı bloklarının struktur və məzmununun müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Süni intellekt yarandığı gündən bəri müxtəlif optimist və pessimist fikirlərlə qarşılaşsa da, hazırda ən yeni və müasir texnologiyaların yaradılmasında mühüm yer tutur. Süni intellekt ifadəsi ilk dəfə 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunub. O, bu ifadəni işlədərkən süni intellekti maşınları intellektual etmək elmi və mühəndisliyi kimi səciyyələndirib. Eramızdan əvvəl IV əsrdə yaşamış Aristotel süni intellekt düşüncəsinin əsasını təşkil edən sillogizmlər nəzəriyyəsinin əsasını qoymuşdur. 1275-ci ildə Roman Llull özünün *Ars Maqna* adlı məntiq aparatını ixtira etmişdir. *Ars Maqna*ya istifadəçi xristianlıq haqqında bu və ya digər sorğunu (sualı) daxil edir və qurğu insanın köməyi olmadan dərhal avtomatik olaraq bu suala cavab tapırdı. Bu aparat müsəlmanları xristianlaşdırmaq məqsədilə yaradılmışdı (Mahmudov, 2024).

Öyrədici təlim sistemləri sərbəst şəkildə süni intellekt biliklərinin və ondan istifadə proseslərinin əldə olunması əsasında qurulur. Bu, süni intellekt elminin yaranmasının ilk dövrlərindən mərkəzi problem hesab olunurdu. Robototexnika sahəsi və süni intellekt elmi bir-birilə sıx əlaqəlidir. Robototexnika süni intellektdən istifadə edərək intellektual robotların yaradılması kimi yeni bir elm sahəsini əhatə edir. İntellektual sistemlərdə cisimləri manipulyasiya etmək, olduğu yeri tapmaq, ətraf aləmi təhlil etmək və hərəkəti planlaşdırmaq kimi məsələlə-rin praktik reallaşdırılması üçün xeyli iş görülməli, yeni metod və proqramlar yaradılmalıdır.

## Ədəbiyyat

1. Mahmudov, M. (2024). *Süni intellektin linqvistik problemləri*. Elm və Təhsil.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 9-13
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 9-13
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Elgün İbrahimzadə**
Qərbi Kaspi Universiteti
doktorant
https://orcid.org/0009-0001-2881-4757
ibrahimovelgun.2000@gmail.com

# Azərbaycanca: prezidentlik sisteminin institusional üstünlükləri: müasir demokratik idarəetmədə strukturun rolu

***Açar sözlər:*** *prezidentlik sistemi, hakimiyyət qollarının ayrılığı, demokratik hesabatlılıq, konstitusion dizayn, siyasi sabitlik, icra hakimiyyəti, institusional tarazlıq, qanunvericilik səlahiyyətləri, seçki dinamikası, demokratik konsolidasiya*

***Keywords:*** *presidential system, separation of powers, democratic accountability, constitutional design, political stability, executive power, institutional balance, legislative powers, electoral dynamics, democratic consolidation*

Prezident sistemi müasir konstitusion quruluşda icra hakimiyyətinin qanunvericilik orqanından institusional olaraq ayrıldığı və prezidentin parlamentdən asılı olmayan ayrıca demokratik mandatla seçildiyi idarəetmə modelidir. Bu modelin həqiqi effektivliyi səlahiyyət bölgüsü və seçki təqviminin strukturu kimi faktorlardan asılıdır (Shugart & Carey, 1992, pp. 1–2; Mainwaring & Shugart, 1997, pp. 1–4). Prezidentlik sistemlərini vahid bir forma kimi deyil, müxtəlif parametrlərin yaratdığı geniş spektr kimi anlamaq vacibdir.

Konseptual çərçivə: Prezidentliyin institusional nüvəsi üç elementlə təsvir olunur: prezidentin müstəqil legitimliyi, sabit müddət və hakimiyyət qollarının ayrılığı. Bu struktur həm effektiv idarəçilik üçün imkanlar, həm də institusional tarazlıq

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

mexanizmləri yaradır (Cheibub, 2007, pp. 6–7; Shugart & Carey, 1992, p. 8). Sistemin uğuru dizaynın "sürət–nəzarət" və "sabitlik–elastiklik" balansını necə qurmasından asılıdır.

*Prezidentlik sisteminin əsas üstünlükləri:*

1. *Siyasi məsuliyyətin aydınlığı və hesabatlılıq:* Prezidentlik institutunun ən fundamental üstünlüyü siyasi rəhbərliyin və məsuliyyətin seçici üçün daha aydın və görünən olmasıdır. Vahid icra rəhbəri vətəndaşlara hökumətin performansını qiymətləndirmək üçün konkret istinad nöqtəsi təqdim edir. Bu, çoxparçalı koalisiyalarda yaranan məsuliyyətin "paylanması" probleminə qarşı effektiv mexanizmdir (Shugart & Carey, 1992, pp. 44–45). Seçicilər bilir ki, kimlər icraedici qərarlar qəbul edir və bu şəxsləri növbəti seçkilərdə mükafatlandıra və ya cəzalandıra bilərlər. Belə şəffaflıq demokratik hesabatlılığı gücləndirir və seçicilərin məlumatlı qərarlar qəbul etmə qabiliyyətini artırır.
2. *İdarəetmədə sabitlik və proqnozlaşdırılabilirlik:* Sabit müddət idarəetmədə proqnozlaşdırıla bilmə yaradır və uzunmüddətli dövlət siyasətləri üçün əlverişli mühit formalaşdırır. Hökumət gündəlik parlament etimadı üzərindən dağılma riski olmadan işləyir, bu da strategik planlaşdırmaya və ardıcıl siyasət həyata keçirilməsinə imkan verir (Cheibub, 2007, p. 137). Prezidentlər öz mandatları dövründə daha uzunmüddətli islahatlar və proqramlar həyata keçirə bilərlər, çünki qısamüddətli koalisiya dəyişiklikləri narahatlığı olmur. Bu sabitlik xüsusilə iqtisadi transformasiya və struktur islahatları kimi mürəkkəb proseslər üçün əhəmiyyətlidir.
3. *Hakimiyyət qollarının ayrılığı və sui-istifadənin qarşısının alınması:* Ayrı-ayrı legitimlik mənbələri gücün tək mərkəzdə cəmlənməsinin qarşısını alan institusional filtrlər formalaşdırır (Shugart & Carey, 1992, p. 286). Bu sistem prezident və qanunverici orqanların qarşılıqlı nəzarəti vasitəsilə

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

demokratik tarazlıq yaradır. Hər bir qol müstəqil olaraq seçildiyi üçün heç biri digərindən tam asılı deyil və bu da gücün mərkəzləşməsini azaldır. Nəzarət mexanizmləri real işlədikdə, bu struktur avtoritarlığın qarşısını almaqda və demokratik prinsipləri qorumaqda effektiv olur (Mainwaring & Shugart, 1997, p. 35).

4. *Böhran anlarında operativlik və qərarqəbuletmə sürəti:* Vahid icra mərkəzi qərar zəncirini sadələşdirərək idarəetmə xərclərini azalda bilər və sürətli reaksiya imkanı yaradır (Cheibub, 2007, pp. 154–156). Fövqəladə hallarda və təcili qərarlar tələb edən vəziyyətlərdə prezident sistemi koalisiya danışıqlarının uzanması olmadan daha operativ hərəkət edə bilir. Bu üstünlük xüsusilə təbii fəlakətlər, iqtisadi böhranlar və digər təcili vəziyyətlərdə özünü göstərir. Prezident birbaşa icra səlahiyyətlərinə malik olduğu üçün tez və həlledici tədbirlər görə bilir.
5. *Struktur adaptivlik və institusional konfiqurasiyaların müxtəlifliyi:* Prezidentlik sistemlərinin dizayn çevikliyi mühüm üstünlükdür. Prezidentin veto alətləri, dekret səlahiyyətləri və seçki qaydaları sistemi müxtəlif kontekstlərə uyğunlaşdırmağa imkan verir (Abebe & Bulmer, 2019, pp. 11–12). İki dövrəli seçki sistemi, məsələn, prezidentin daha geniş dəstək əldə etməsini təmin edərək legitimliyini gücləndirir. Hər ölkə öz siyasi mədəniyyəti, tarixi və cəmiyyət strukturuna uyğun prezidentlik modelini formalaşdıra bilər. Bu çeviklik sistemin müxtəlif demokratik ənənələrə və yerli şəraitə uyğunlaşmasına kömək edir.
6. *Partiya sisteminin inkişafı və çoxşaxəlilik:* Prezident seçkiləri partiya sisteminin təşəkkülündə mühüm rol oynayır və siyasi rəqabəti stimullaşdırır. Müxtəlif partiyalar öz namizədlərini irəli sürərək seçicilər qarşısında fərqli proqramlar təqdim edirlər. Bu, siyasi çoxşaxəliliyin və rəqabətli

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

siyasətin inkişafına töhfə verir. Parlament seçkiləri ilə birlikdə sistem həm geniş təmsil, həm də effektiv rəhbərlik yarada bilir (Shugart & Carey, 1992, p. 8). Nəticədə vətəndaşlar həm yerli məsələlərdə parlamentdə təmsil olunur, həm də milli rəhbərliyi birbaşa seçir.

7. *Regional və milli maraqların balansı:* Prezident seçkiləri namizədləri bütün ölkə ərazisində dəstək toplamağa sövq edir. Bu, regional və etnik parçalanmanın qarşısını almağa kömək edə bilər, çünki prezidentlər dar regional və ya etnik bazadan daha geniş koalisiyalar qurmağa məcbur olurlar (Abebe & Bulmer, 2019, pp. 20–22). Bütün ölkəni təmsil edən prezident milli birliyin simvolu kimi çıxış edə və müxtəlif qruplar arasında körpü rolu oynaya bilər.

Prezidentlik sistemlərinin effektivliyi onların dizayn elementlərindən, institusional balansdan və ölkənin konkret siyasi kontekstindən asılıdır. Tədqiqatlar göstərir ki, prezidentlik sistemlərinin uğuru və ya uğursuzluğu sistemin strukturundan daha çox onun fəaliyyət göstərdiyi tarixi və sosial şəraitlə bağlıdır (Cheibub, 2007, p. 136). Prezidentin səlahiyyətləri ilə parlamentin gücü arasında qurulan konstitusion balans rejimin dayanıqlılığı üçün həlledicidir. Shugart və Carey prezidentlərin qanunvericilik səlahiyyətlərinin dərəcəsinin sistemin effektivliyinə birbaşa təsir etdiyini göstərirlər (Shugart & Carey, 1992, p. 131).

Yekun olaraq, prezidentlik sistemləri doğru dizayn edildikdə və institusional tarazlıq qorunduqda demokratik idarəçilik üçün əhəmiyyətli üstünlüklər təqdim edir. Siyasi məsuliyyətin aydınlığı, idarəetmə sabitliyi, hakimiyyət qollarının qarşılıqlı nəzarəti, böhran anlarında operativlik və dizayn çevikliyi bu sistemin əsas güclü tərəfləridir. Demokratik konsolidasiya üçün həm seçki dinamikası (Abebe & Bulmer, 2019, pp. 28–30), həm də institusional çəkindirmə mexanizmləri ölkənin sosial-siyasi

**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

reallıqlarına uyğunlaşdırılmalıdır. Prezidentlik institutunun uğuru sistemin struktur üstünlüklərinin yerli kontekstdə effektiv şəkildə həyata keçirilməsindən asılıdır.

## Ədəbiyyat

1. Abebe, A. K., & Bulmer, W. E. (2019). *Electing presidents in presidential and semi-presidential democracies* (International IDEA Constitution-Building Primer No. 21). International IDEA. https://www.idea.int/publications/catalogue/electing-presidents-presidential-and-semi-presidential-democracies
2. Cheibub, J. A. (2007). *Presidentialism, parliamentarism, and democracy*. Cambridge University Press.
3. Mainwaring, S., & Shugart, M. S. (Eds.). (1997). *Presidentialism and democracy in Latin America*. Cambridge University Press.
4. Shugart, M. S., & Carey, J. M. (1992). *Presidents and assemblies: Constitutional design and electoral dynamics*. Cambridge University Press.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Nazrin Rahmanova**
Azerbaijan University of Languages
PhD student
https://orcid.org/0009-0000-3935-3549
nezrin.rahmanova@gmail.com

# Key Criteria for the Identification of Phraseological Units in Modern French

***Keywords:*** *phraseological units, stability, adverbial phraseological units, frequency, semantic opacity*
***Açar sözlər:*** *frazeoloji vahidlər, sabitlik, adverbial frazeologizmlər, tezlik, semantik qeyri-səffaflıq*

According to the definition of a phraseological unit proposed by the founder of phraseology, Charles Bally, the main criteria of phraseological units include stability, integrity, archaism, and equivalence to a single word. Subsequent and more in-depth research in this field has called into question some of the aforementioned properties and has also introduced new ones, which later formed the basis for the development of successful typological classifications of phraseological units in modern French (Bally, 1905).

Thus, linguists S. Mejri, A. Violet, and M. Pecman, when addressing the issue of phraseological stability, emphasize the need to specify the degree of this criterion, since it may be either strongly or weakly manifested. Among the objects of the present study—adverbial phraseological units—there are locutions that readily allow syntactic and lexical modifications, sometimes to the extent that such modifications are even necessary, as well as others that do not permit the slightest transformation.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

I. Rey and M. Pecman, among the properties facilitating the identification of phraseological units, highlight such criteria as frequency, semantic opacity, and etymology.

Let us consider frequency in greater detail and examine an illustrative example from the material of our study—the novel *La vie devant soi* (*The Life Before Us*) by R. Gary, published in 1975 under the pseudonym Emile Ajar. I. Rey also refers to frequency as grammatical regularity, since, in her view, phraseological units are lexicalized precisely through this process, gradually becoming grammatically equivalent to certain constructions (Rey, 2021, p. 52).

M. Pecman assigns a special role to the frequency criterion, as it can be applied to the processing of larger corpora of the studied material with the aid of software tools. She proposes assigning phraseological units a specific frequency index which, depending on the rate of occurrence, may be low, medium, or high.

*Thus, the nominal phraseological unit faux jeton ("a two-faced person"), which occurs twice in the novel, may be assigned a "medium-frequency" index (Gary, 1975):*

1. "Moi j'aime pas les gens qui ont des visages où ça change tout le temps et fuit de tous les côtés et qui n'ont jamais la même gueule deux fois de suite. Un faux jeton, on appelle ça…"
2. "C'est donc là-dessus que Monsieur N'Da Amédée est arrivé avec ses deux gardes du corps, pour se faire écrire une lettre, dont celui qui avait tellement l'air d'un faux jeton que personne ne pouvait l'encaisser."

The adverbial phraseological unit *à l'improviste* ("unexpectedly") is used by the author only once and may therefore be characterized as "low-frequency":

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

"Elle s'était protégée de tous les côtés depuis qu'elle avait été saisie à l'improviste par la police française qui fournissait les Allemands et placée dans un Vélodrome pour Juifs."

*Thus, the analysis of the presented theoretical positions and illustrative material allows the following conclusions to be drawn (Pecman, 2004):*

1. The classical definition of a phraseological unit proposed by Charles Bally played a fundamental role in the establishment of phraseology as an independent linguistic discipline; however, the subsequent development of the field has demonstrated the relative and dynamic nature of several of the criteria he identified.
2. Adverbial phraseological units in French display varying degrees of stability: some allow syntactic and lexical modifications, which may even be necessary for their functioning in discourse, whereas others retain a strictly fixed form. Consequently, stability should be regarded as a gradual rather than a binary feature.
3. The analysis of examples from R. Gary's novel *La vie devant soi* demonstrates that the frequency criterion is applicable to both nominal and adverbial phraseological units and enables their differentiation according to the degree of usage within a specific literary text. Therefore, the combination of structural-semantic and quantitative criteria ensures a more precise and flexible description of phraseological units in modern French and contributes to a deeper understanding of their functioning in discourse.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

## References

1. Bally, C. (1905). *Traité de stylistique française* (Vols. I–II). Librairie Georg & Cie.
2. Gary, R. (1975). *La vie devant soi*. Mercure de France.
3. Pecman, M. (2004). L'enjeu de la classification en phraséologie. In *Actes du Congrès Europhras,* 127–146.
4. Rey, I. G. (2021). La nouvelle phraséologie du français. *Presses Universitaires du Midi*, 51–64.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Tural Gojayev**
Azerbaijan University
PhD student
https://orcid.org/0000-0002-1725-0298
tural.goayev@au.edu.az

# Inclusive Growth in the Economy of Azerbaijan after Independence: Drivers, Challenges, and Perspectives

***Keywords:*** *inclusive growth, Azerbaijan economy, socio-economic inequality, poverty, economic reforms, regional development, economic diversification*
***Açar sözlər:*** *inklüziv artım, Azərbaycan iqtisadiyyatı, sosial-iqtisadi bərabərsizlik, yoxsulluq, iqtisadi islahatlar, regional inkişaf, iqtisadi diversifikasiya*

The concept of inclusive growth has become a central pillar of modern development economics, emphasizing the creation of economic opportunities that benefit all segments of society. For post-Soviet Azerbaijan, achieving inclusive growth has been a complex task, intertwined with the challenges of nation-building, economic transition, and managing vast hydrocarbon wealth. After independence, Azerbaijan faced severe economic contraction, hyperinflation, and social instability. The signing of the "Contract of the Century" in 1994 marked a turning point, unleashing an oil boom that transformed the macroeconomic landscape but also posed risks of the "resource curse," including Dutch disease and increased inequality. This paper explores how Azerbaijan has navigated these challenges to foster inclusive growth.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Macroeconomic Stability and the Foundations of Growth**

The initial phase of post-independence economic development was characterized by stabilization. With the influx of oil revenues in the 2000s, Azerbaijan achieved remarkable macroeconomic indicators: high GDP growth rates, significant foreign exchange reserves, and low external debt. The establishment of the State Oil Fund of the Republic of Azerbaijan (SOFAZ) in 1999 was a crucial institutional innovation designed to manage oil revenues transparently and save for future generations. These macroeconomic gains provided the fiscal space for the state to launch large-scale social and infrastructure programs, which formed the initial basis for broader inclusion (Bayramov, 2018).

**Poverty Reduction and Social Inclusion: Direct Interventions**

One of the most significant achievements of Azerbaijan's development path has been the drastic reduction in absolute poverty. According to World Bank data, the poverty rate fell from nearly 50% in 2001 to about 5% in recent years. This success was driven by a combination of robust economic growth and targeted social policies. The government implemented substantial increases in public sector wages, pensions, and social benefits. Large-scale investment in social infrastructure—schools, hospitals, and utilities—improved access to basic services. Programs like the "State Program on Poverty Reduction and Sustainable Development" (2008–2015) played a pivotal role in channeling resources to vulnerable groups (World Bank, 2020).

**The Challenge of Inequality and Regional Disparities**

Despite success in poverty reduction, challenges related to inequality and regional imbalances persist. The benefits of growth have not been evenly distributed. The capital, Baku, and the Absheron Peninsula, being the hub of the oil industry and

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

related services, have developed disproportionately compared to rural regions and non-oil sectors. This has led to significant gaps in income, employment opportunities, and quality of life. The Gini coefficient, a measure of income inequality, has shown fluctuations but indicates a level of inequality that remains a policy concern. Furthermore, the dependency on the oil sector has limited job creation in labor-intensive, productive sectors such as agriculture and manufacturing, affecting inclusive employment (Tabata, 2012).

**Economic Diversification as a Pathway to Inclusive Growth**

Recognizing the limitations of an oil-centric model, Azerbaijani authorities have increasingly prioritized economic diversification as the core strategy for sustainable and inclusive growth. Strategic roadmaps and state programs have been adopted to develop non-oil sectors such as agriculture, tourism, logistics, and information and communication technology (ICT). *Key initiatives include:*

•*Agricultural development:* Support for farmers through subsidies, improved irrigation, and access to markets.

•*SME promotion:* Establishment of financial support mechanisms (e.g., the National Fund for Entrepreneurship Support) and simplification of business regulations to foster private sector growth and job creation.

•*Regional development programs:* Targeted state investments in infrastructure and industrial parks outside Baku to stimulate economic activity in regions.

The success of these diversification efforts is critical for creating quality jobs, reducing spatial inequality, and building a resilient economy (ADB, 2019).

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Table 1:**
Key Socio-Economic Indicators of Azerbaijan (Selected Years).

| Indicator | 2000 | 2010 | 2020 | Source |
|---|---|---|---|---|
| GDP per capita (current USD) | ~655 | 5,899 | 4,214 | World Bank |
| Poverty Headcount Ratio (% of population) | 48.6 | 7.6 | ~5.0 | World Bank, SSAC |
| Gini Coefficient (Income) | N/A | 0.337 (2011) | 0.327 (2019) | SSAC |
| Non-Oil Sector Share in GDP (%) | 44.3 | 48.1 | 67.2 (2022) | SSAC, Ministry of Economy |
| Unemployment Rate (%) | N/A | 5.6 | 6.0 (2023) | SSAC |

*SSAC: State Statistical Committee of the Republic of Azerbaijan.*

**Current Challenges and Future Perspectives**

Azerbaijan's journey towards inclusive growth continues to face headwinds. External shocks, such as volatility in global oil prices and regional geopolitical conflicts, underscore the

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

urgency of diversification. Strengthening institutions, improving the business environment for non-resource sectors, and enhancing human capital through education and vocational training are imperative. Furthermore, inclusive growth requires not only economic but also political and social inclusion, ensuring equal opportunities and civic participation for all citizens. The post-conflict reconstruction and development of the liberated territories present both a massive challenge and a unique opportunity to build a modern, diversified, and inclusive economic zone from the ground up (Gurbanov, 2021).

Azerbaijan has made substantial progress in ensuring inclusive growth since independence, primarily through effective poverty reduction and macroeconomic management funded by hydrocarbon revenues. However, the transition to a fully diversified, high-value, and knowledge-based economy remains incomplete. Persistent regional disparities, sectoral imbalances, and vulnerability to external shocks highlight the need for deeper structural reforms. The future of inclusive growth in Azerbaijan hinges on the consistent implementation of diversification policies, investment in human capital, and the creation of a competitive, non-oil private sector that generates widespread employment and prosperity.

## References

1. Asian Development Bank. (2019). *Azerbaijan: Country partnership strategy 2019–2023*. Asian Development Bank.
2. Bayramov, V. (2018). *Oil, institutions and sustainability in Azerbaijan*. Çaşıoğlu.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

3. Gurbanov, I. (2021). Post-conflict economic development in Azerbaijan: Challenges and opportunities for inclusive growth. *Caucasus Analytical Digest*, (118), 2–6.
4. Tabata, S. (2012). Azerbaijan's oil boom and the Dutch disease. In *The economics of oil and gas in the Caucasus and Central Asia*. Routledge.
5. World Bank. (2020). *Azerbaijan: Systematic country diagnostic*. World Bank Group.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 23-27**
***Scientific Resources*** **XXV Republican Scientific Conference / 15 january 2026 / 23-27**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Lalə Mirzəyeva**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant
https://orcid.org/0009-0007-1814-284X
2lmirzam@gmail.com

# Azərbaycan və dünyada siyasi onomastika

***Açar sözlər:*** *dil, onomastika, siyasət, siyasi onomastika, söz*
***Keywords:*** *the language, onomastics, politics, political onomastics, word*

Onomologiya Azərbaycan dilçiliyində ən yeni sahələrdən biridir. Bu yeni dilçilik sahəsi özü də bir sıra yeni şaxələrə, qollara ayrılmaqdadır. Son dövrlərdə bu sahələrdən biri də siyasi onomastikadır. Siyasi onomastika sözü siyasət və onomastika sözlərinin bir növ birləşməsidir. Siyasi onomastika anlayışı da bu sözlərin izahı ilə bağlıdır (Qurbanov, 2010).

"Siyasət" sözü idarəçilik, hakimlik sözləri ilə bağlı bir ifadə olduğu üçün siyasi onomastika anlayışı da siyasi mühitdə işlədilən xüsusi sözlərdən bəhs edən dilçilik şöbəsidir.

"Siyasət" sözündə dövlət, idarəçilik forması, bölgüsü və s. kimi məsələlər əhatə olunduğu kimi, siyasi onomastik vahidlər də bu sahələrə aid onomastik vahidlərdir. Siyasət sırf dövlətçiliklə, idarəçiliklə bağlı yaranmışdır (Qurbanov, 2019).

Siyasi onomastikanın tarixi də buradan başlayır. Düzdür, onomastika Azərbaycan dilçiliyində yeni, dünya dilçiliyində isə nisbətən daha orta əsrlərdə yaranmış bir sahə olsa da, xüsusi sözlərdən yazılarda istifadə çox daha qədimlərə — 5–6 min il əvvələ, Misir yazılarına, mixi yazılara gedib çıxdığı mənbələrdə müəyyən edilmişdir.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Araşdırmalara görə, Qədim Misir yazılarında allahların, fironların, xüsusi hörmət göstərilən varlıqların adı ştrixlərlə, altından xətt çəkilməklə, qalın yazılması və s. kimi üsullarla fərqləndirilmişdir.

Bəzən qırmızı xətlərlə göstərilərək ümumi sözlərdən ayırırmışlar. Bu, sonrakı qədim dövlətlərin də (Çin, Akkad, Assuriya və s.) yazılarında göstərilməyə, fərqləndirilməyə davam edilmişdir ("The Politics of Naming").

Onomastikada ilk tədqiq edilən sahə antroponimlər olmuşdur, daha sonra bunu toponimlər davam etdirmişdir. Dünya dilçiliyində onomastika üzrə ilk tədqiqatlar və ərsəyə gələn lüğətlər XVI əsrə aiddir, lakin şəxs adları ilə bağlı siyahıların Yaponiyada hələ V–VI əsrlərdə geniş istifadə edildiyi mənbələrdə qeyd edilir. Şəxs və yer adlarının araşdırılması XIX əsrə qədər onomastikanın əsas xətti olaraq qalmışdır.

XIX əsrin sonlarından isə bura digər sahələrə aid xüsusi sözlər də daxil edilmiş və siyasi onomastikanın yaranmağa başlaması XX əsrin sonlarına təsadüf edir. Siyasi onomastika daha çox Şimali Amerikada yaranmışdır; burada daha çox partiya və birliklər, xüsusən də miqrantlarla bağlı olan məsələlər öyrənilməyə başlanılmışdır ("The Politics of Naming: A Personal Reflection", n.d.).

Azərbaycanda isə onomastika bir elm kimi daha gec — XX əsrin ikinci mərhələsində yaranmağa başlamışdır. Bu fəaliyyət Afad Qurbanovun adı ilə bağlıdır. Siyasi onomastika isə hələ araşdırılmamış məsələlərdən, sahələrdəndir.

Siyasi onomastika dövlətlə bağlı olduğu kimi, Azərbaycanda yaranmış ilk dövlət isə Manna hesab edilir. Deməli, araşdırılmasa da, Azərbaycanda əsas siyasi onomastik vahidlərin formalaşması da çox qədimdir. Siyasi onomastik vahidlər dil faktı olsa da, siyasət və tarix elminin kəsişməsində yerləşir. Bu

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

vahidlərin araşdırılması bu elmlərdən də faydalanmağı gərəkli bilir ("Towards a Theory of Political Onomastics", 2005).

*Dünya dilçiliyində siyasi onomastik vahidlər önəmli üç anlayışla əlaqələndirilir:*

1. "Güc" anlayışı
2. "Dil" anlayışı
3. "Ad" anlayışı

*Azərbaycanda siyasi mühitə aid olacaq onomastik vahidləri belə ümumiləşdirmək olar:*

1. Siyasi antroponimlər
2. Siyasi ktematonimlər
3. Partiya adları (palitonimlər)
4. Siyasi toponimlər və digərləri

İstər dünya dilçiliyində, istərsə də Azərbaycan dilçiliyində mövcud olan siyasi sferaya aid onomastik vahidlərin bir sıra xarakterik xüsusiyyətləri vardır: daha tez qloballaşa bilir, tarixdə daha çox qala bilir, digər sferalara keçə bilir, rəsmi üslubun ayrılmaz hissəsidir, daha tez yadda qalır, tarixlə, siyasətlə əlaqəsi daha çoxdur, daha çox milli vəsiqə rolunu oynaya bilir və s.

Dilimizdə siyasi onomastik vahidlərə misal olaraq dövlət adını, dövlət başçılarının adlarını, ölkənin rəsmi rəmzlərini, ölkə daxilində mövcud olan nazirlikləri, səfirlikləri, partiya, təşkilat, birlik adlarını və s. göstərmək olar.

Siyasi onomastik vahidlərin daha çox ümumişlək olmaq, dünya arenasına çıxmaq imkanları genişdir. Buna həm siyasi sfera ilə bağlılıq, həm də dünyada siyasiləşmə meyilləri səbəb olur ("Azərbaycan onomastikası problemləri", 2003).

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

## Ədəbiyyat

1. Qurbanov, A. (2010). *Müasir Azərbaycan dili* (Cild 1). Elm və Təhsil.
2. Qurbanov, A. (2019). *Azərbaycan onomologiyasının əsasları*.
3. The politics of naming: A personal reflection. (n.d.).
4. Towards a theory of political onomastics. (2005).
5. Azərbaycan onomastikası problemləri. (2003). Onomastika məsələlərinə həsr olunmuş konfransın materialları.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Fatimə Qasımova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-8997-6743
fatimagasimovaa13@gmail.com

# Təhsil sektorunda HRM-in beynəlxalq təcrübəsi və milli kontekstdə tətbiqi

***Açar sözlər:*** *təhsil, beynəlxalq, milli, müəllimlər, kadr, kompetensiya, rəqəmsal*

***Keywords:*** *education, international, national, teachers, staff, competence, digital*

Təhsil sektorunda insan resurslarının idarə edilməsi (HRM) son onilliklərdə qlobal miqyasda sürətlə inkişaf edən istiqamətlərdən birinə çevrilmişdir. Müasir dövrdə təhsil sistemlərinin keyfiyyətinin artırılması, müəllimlərin peşəkar inkişafı, idarəetmə proseslərinin səmərəliliyinin yüksəldilməsi və insan kapitalının düzgün formalaşdırılması birbaşa HRM strategiyalarının effektivliyindən asılıdır. Qlobal rəqabətin güclənməsi, bilik iqtisadiyyatına keçid və texnologiyaların təhsilə nüfuzu HRM-in daha çevik, innovativ və nəticəyönlü modellərlə əvəz olunmasını zəruri etmişdir. Bu baxımdan, beynəlxalq təcrübədə tətbiq olunan insan resurslarının idarə edilməsi yanaşmalarının öyrənilməsi və onların milli təhsil sisteminə uyğunlaşdırılması strateji əhəmiyyət daşıyır (Quliyev, 2022, s. 200).

Beynəlxalq miqyasda, xüsusilə OECD, UNESCO və inkişaf etmiş ölkələrin təhsil modellərində HRM konsepsiyası yalnız kadrların idarə edilməsi kimi deyil, daha geniş—təhsil sisteminin inkişafının əsas dayağı kimi qiymətləndirilir. Bu ölkələrdə HRM müəllimlərin peşəkar inkişafı, performans qiymət-

ləndirməsi, motivasiya mexanizmləri, kompetensiya əsaslı idarəetmə, liderlik və təşkilati mədəniyyətin gücləndirilməsi kimi çoxşaxəli komponentləri əhatə edir. Finlandiya, Sinqapur, Estoniya, Kanada və Cənubi Koreya kimi yüksək nəticə göstərən ölkələrdə HRM-in sistemli tətbiqi təhsil keyfiyyətinin yüksəlməsində əsas amillərdən biri kimi göstərilir. Bu təcrübə göstərir ki, insan resurslarının idarə edilməsində strategiyanın vahidliyini, şəffaf qiymətləndirmə mexanizmlərini, davamlı peşəkar inkişaf imkanlarını və rəqəmsal HRM platformalarını birləşdirmək təhsil sistemlərinin transformasiyasına mühüm təsir göstərir (Əliyev, 2023, s. 54).

Azərbaycanın milli təhsil sistemi də son illərdə insan resurslarının idarə olunması sahəsində əhəmiyyətli islahatlar həyata keçirmişdir. Müəllimlərin diaqnostik qiymətləndirilməsi, sertifikatlaşdırma mexanizmlərinin tətbiqi, direktorların seçim prosesində şəffaf müsabiqə modellərinin genişləndirilməsi, peşəkar inkişaf mərkəzlərinin yaradılması və rəqəmsal idarəetmə alətlərinin inteqrasiyası HRM-in gücləndirilməsi istiqamətində atılan mühüm addımlardır. Bununla yanaşı, beynəlxalq təcrübədəki yüksək nəticəli modellərlə müqayisədə milli kontekstdə institusional dayanıqlığın gücləndirilməsi, motivasiya sisteminin təkmilləşdirilməsi, müəllim hazırlığı standartlarının yenilənməsi, məktəb rəhbərliyinin liderlik bacarıqlarının artırılması və strateji HRM yanaşmasının bütövlükdə təhsil sistemi üzrə tətbiqi kimi məsələlər hələ də aktuallığını qoruyur (Məmmədova və Xasaylı, 2023, s. 125).

Bu çərçivədə mövzunun aktuallığı ondan ibarətdir ki, təhsil sistemlərində insan resurslarının idarə edilməsi yalnız kadr proseslərinin təşkili deyil, həm də təhsil keyfiyyətinin yüksəldilməsi, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması və milli inkişaf strategiyalarının icrası üçün əsas mexanizmdir. Beynəlxalq HRM modellərinin öyrənilməsi və onların

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Azərbaycan təhsil sistemində tətbiq imkanlarının təhlili həm nəzəri, həm də praktiki baxımdan mühüm elmi araşdırma istiqaməti kimi çıxış edir. Bu mövzu həm idarəetmə sahəsində innovativ yanaşmaların tətbiqi, həm də milli təhsil sisteminin modernləşməsi prosesinin elmi əsaslarla qiymətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Təhsil sektorunda insan resurslarının idarə edilməsi (HRM) müasir dövrdə təhsil sistemlərinin keyfiyyətinin müəyyənləşdirilməsində və uzunmüddətli inkişaf strategiyalarının reallaşdırılmasında həlledici rol oynayır. Aparılmış təhlillər göstərir ki, beynəlxalq təcrübədə HRM konsepsiyası təkcə kadrların seçilməsi və yerləşdirilməsi ilə məhdudlaşmır; əksinə, o, müəllimlərin peşəkar inkişafını, motivasiya mexanizmlərini, performans qiymətləndirmə sistemlərini, liderlik bacarıqlarını, rəqəmsal idarəetmə alətlərini və təşkilati mədəniyyətin yenilənməsini əhatə edən inteqrativ bir idarəetmə modelidir. Finlandiya, Sinqapur, Estoniya kimi qabaqcıl ölkələrin təcrübələri göstərir ki, təhsil sistemində yekun nailiyyətlərin əsasını məhz HRM-in strateji, sistemli və davamlı tətbiqi təşkil edir.

Milli kontekstdə aparılan islahatlar, xüsusilə müəllimlərin sertifikatlaşdırılması, direktorların müsabiqə yolu ilə seçilməsi, peşəkar inkişaf imkanlarının genişləndirilməsi və rəqəmsal HRM mexanizmlərinin tətbiqi Azərbaycan təhsil sistemində müsbət dəyişikliklərə səbəb olmuşdur. Lakin beynəlxalq standartlarla müqayisədə hələ də təkmilləşdirilməsi zəruri olan istiqamətlər mövcuddur. Bunlara motivasiya sistemlərinin yenilənməsi, kompetensiya əsaslı idarəetmə yanaşmasının genişləndirilməsi, məktəb rəhbərliyində liderlik bacarıqlarının gücləndirilməsi, insan resursları üzrə strateji planlaşdırma sistemlərinin institusional səviyyədə bərpası və müəllim hazırlığı standartlarının modernləşdirilməsi daxildir.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Araşdırma göstərir ki, təhsil sektorunda HRM-in effektiv tətbiqi üçün milli təcrübə ilə beynəlxalq modellərin sintezindən yararlanmaq vacibdir. Təhsil müəssisələrində idarəetmənin daha şəffaf, innovativ və nəticəyönlü şəkildə təşkili HRM-in inkişafı ilə birbaşa bağlıdır. Bu isə özlüyündə təhsil keyfiyyətinin yüksəlməsi, rəqabətqabiliyyətli insan kapitalının formalaşması və ölkənin sosial-iqtisadi inkişaf hədəflərinin uğurla reallaşması üçün yeni imkanlar yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, beynəlxalq HRM praktikasının elmi əsaslarla öyrənilməsi və milli təhsil sisteminə adaptasiyası Azərbaycan təhsilinin modernləşməsi prosesinin mühüm komponentidir. HRM-in strateji yanaşmalarla tətbiqi təhsil sisteminin dayanıqlı inkişafına, innovasiyaların genişlənməsinə və təhsil işçilərinin peşəkar potensialının gücləndirilməsinə şərait yaradır. Bu səbəbdən, gələcək islahatların mərkəzində insan resurslarının idarə olunmasının sistemli şəkildə inkişaf etdirilməsi dayanmalıdır.

## Ədəbiyyat

1. Əliyev, A. (2023). *Ali təhsil sistemində insan resurslarının idarə edilməsi: Problemlər və inkişaf perspektivləri* [Avtoreferat].
2. Quliyev, R. H. (2022). *İnsan resurslarının idarə edilməsi* (dərslik). Bakı Avrasiya Universiteti.
3. Məmmədova, V. Q., & Xasaylı, İ. S. (2023). İnsan resurslarının idarə edilməsində informasiya təhlükəsizliyi və idarəetmə mexanizmləri. *Journal of Innovative Economics & Management*.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 32-35
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 32-35
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Ramil Usubov**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0004-2587-5580
ramil.usubov23@gmail.com

# Təhlükəsizlik dilemmasının regional gərginliklərin artmasında rolu

***Açar sözlər:*** *təhlükəsizlik dilemması, münaqişə, uzunmüddətli sabitlik, rəqabət, aqresiya*
***Keywords:*** *security dilemma, conflict, ong-term stability, competition, aggression*

Təhlükəsizlik anlayışı tarix boyu daim aktual olan mövzulardan biri olmuşdur. İstənilən sahə və şəxs üçün onun təhlükəsizliyi daim ön plandadır. Bu anlayış beynəlxalq aktorlar üçün isə artıq onların davamiyyətinə təsir edən bir mövzudur. Dövlətlərin istənilən siyasi addımlarının baş vermə səbəblərindən biri daimi olaraq təhlükəsizlikləri olmuşdur.

Keçən əsrdə baş verən iki dünya müharibəsinin nəticələrindən biri də elmi və sosial sahənin intensiv inkişafına səbəb olmasıdır. Keçən yüz il ərzində bir çox yeni anlayış və teoriya elmə daxil oldu. Bunlardan biri də təhlükəsizlik dilemması idi.

Təhlükəsizlik dilemması bir fikir kimi ilk dəfə Herbert Butterfield tərəfindən 1949-cu ildə elmə gətirildi. Lakin bu zaman Herbert Butterfield bunu bir fikir və konsept kimi yazmış, lakin adlandırmamışdır. 1950-ci ildə isə John Herz tərəfindən adlandırılmışdır (Wivel, 2011, p. 2).

Təhlükəsizlik dilemması—iki və ya daha çox aktorun olduğu qrupda (dövlət, QHT, təşkilat) bir tərəf digər aktorların ona təhlükə yaratdığını hiss edir və ya qarşı tərəfdən hər hansı bir hərbi müdaxilə ediləcəyinə inanaraq silahlanmağa, daha çox güc

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

toplamağa başlayır, lakin bu hərəkət digər tərəfdə anlaşılmazlıq və təhlükə hissi yaratdığında bu zaman bütün tərəflər aktiv silahlanmaya başlayır və güclərini artırır (Herz, 1950, p. 164). Bütün bu proses bir paradoks əmələ gətirir. Bütün tərəflər bu anlaşılmaz situasiyanı tam aydın analiz edə bilmir və bu silahlanma və ya güc toplama prosesi daimi bir hal olaraq qalır.

Bir çox düşünür təhlükəsizlik dilemmasını neorealizmin özəyi kimi anlayır. Realizm beynəlxalq aləmin anarxik bir strukturda olduğunu qeyd edir və belə bir situasiyada dövlətlər bir çox üsul ilə öz aralarında güc balansı qurmağa çalışırlar (Bell, 2023).

Təhlükəsizlik dilemması isə praktikada bir neçə dəfə müşahidə olunmuşdur. Soyuq müharibə buna aid ən böyük nümunə olar. İkinci Dünya müharibəsindən sonra beynəlxalq sfera artıq iki qütbə ayrılmışdı. Belə bir vəziyyətdə ABŞ və SSRİ hər iki tərəf aktiv silahlanma və güc toplama yarışında idi. Hətta bu artıq nəinki qərb aspektində, həmçinin elmi, iqtisadi və daha bir çox sahədə özünü göstərirdi. SSRİ Aya ilk insanı göndərdiyi zaman ABŞ da bu rəqabətə qoşulmuşdu (BBCAzeri.com, 2025). Soyuq müharibə dövrü təhlükəsizlik dilemmasının nail olduğu ən böyük uğur bu iki böyük gücü bu güc yarışında saxlaması idi. Bu zaman hər nə qədər kiçik həcmli hərbi toqquşmalar baş versə də, heç bir müharibə olmamışdır. İki dövlət arasında müharibəyə ən yaxın an Kuba böhranı idi. 1959-cu ildə Kubada rejim dəyişikliyindən sonra SSRİ bura öz raketlərini yerləşdirdi. Bu isə 1962-ci ildə Kuba böhranının baş verməsinə səbəb oldu (Office of the Historian, n.d.). Lakin bu böhran qısa bir zamanda həll olundu.

Təhlükəsizlik dilemmasında ən böyük təhlükə tərəflər arasındakı inamsızlıq və gərginliyin daim yüksək olmasıdır. Silahlanma və güc toplama yarışının daim bir paradoksda olması hər an müharibə təhlükəsinin olduğunun sübutudur. Elə məhz bu

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

situasiya regional gərginliyi daim artırır. Gərgin bir siyasi strukturun hakim olduğu bir regionda aqressiv siyasi həmlələr bir yerdən sonra hərbi qarşıdurmaların yaranmasının səbəbi olur. Digər bir problem isə təhlükəsizlik dilemmasının varlığının dövlətlər arasında yumşalmaya zidd olmasıdır.

Pakistan–Hindistan arasındakı illərdir davam edən bu dilemma strukturu gərgin münasibətin bilavasitə səbəbidir. XXI əsr boyu davam edən münasibətlərin strukturunu analiz etsək, təhlükəsizlik dilemmasının bu iki tərəf arasındakı davam edən problemli münasibətin səbəblərindən biri olduğunu görərik. 2003-cü ildə iki dövlət arasında bağlanan atəşkəs və Line of Control xətti ilə əldə olunan qısa müddətli sülhdən sonra tərəflər arasında nisbətən yumşalma prosesi getdi (The Hindu, 2025). 2003–2006-cı illər arasında bir çox görüş keçirildi və hətta Kəşmir regionunun nəqliyyat sahəsində müəyyən razılaşmalar əldə olundu. Lakin 2006-cı ildən etibarən sərhəd boyu atışmaların artması və 2008-ci ildə baş verən Mumbai terror hadisəsi münasibətləri yenidən gərginləşdirdi (D'Souza, 2019).

Uzunmüddətli regional gərginliklərin həlli zamanı yaranan ən böyük problem yerli xalqın etirazları olur. Uzun müddət davam edən bu nifrət və kin qısa bir zaman ərzində həll olunmur. Təhlükəsizlik dilemması tərəflər arasında uzunmüddətli güc balansı yaradır. Bu müddət ərzində kiçik həcmli hərbi münaqişələr baş verə bilər. Türkiyə–PKK, Azərbaycan–Ermənistan, Şimali Koreya–Cənubi Koreya, Bosniya–Serbiya kimi bir çox nümunədə uzunmüddətli təhlükəsizlik dilemması regional nifrət və kin formalaşmasına səbəb olmuşdur.

Hal-hazırda dünya üzərində bir çox regional münaqişə var və bütün bu problemlər beynəlxalq münasibətlərin gərginləşməsinə səbəb olur. Hər yerdə davam edən münaqişələr dövlətlərarası münasibətləri qarışıq bir hala salır.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 32-35
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 32-35
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

## Ədəbiyyat

1. BBC Azeri. (2025). *Yuri Qaqarin haqqında məqalə*. https://www.bbc.com/azeri/news/story/2008/03/080326_qaqarin
2. Bell, D. (2023). *Realism*. In *Encyclopædia Britannica*. https://www.britannica.com/topic/realism-political-and-social-science
3. D'Souza, S. M. (2019). *Mumbai terrorist attacks of 2008*. In *Encyclopædia Britannica*. https://www.britannica.com/event/Mumbai-terrorist-attacks-of-2008
4. Herz, J. H. (1950). Idealist internationalism and the security dilemma. *World Politics, 2*(2), 157–180.
5. Office of the Historian. (n.d.). *The Cuban Missile Crisis, October 1962*. United States Department of State. https://history.state.gov/milestones/1961-1968/cuban-missile-crisis
6. The Hindu. (2025). *Ceasefire along Line of Control*. Drishti IAS. https://www.drishtiias.com/daily-news-analysis/ceasefire-along-line-of-control
7. Wivel, A. (2011). *Security dilemma*. ResearchGate. https://www.researchgate.net/publication/320211391_Security_dilemma

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 36-38
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 36-38
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Aysel Aslanova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0009-5790-9868
a.aslanova.87@mail.ru

# Seyid Əzim Şirvaninin ədəbi irsinin tədqiqat aspektləri və ədəbiyyatımıza təsiri

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, ədəbi irsi, maarifçilik, Sovet dövrü, tədqiqat, ədəbi təsir, Azərbaycan ədəbiyyatı*
***Keywords:*** *Seyid Azim Shirvani, literary heritage, enlightenment, Soviet period, research, literary influence, Azerbaijani literature*

Bu tezis XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Seyid Əzim Şirvaninin çoxşaxəli ədəbi, fəlsəfi və pedaqoji irsinin elmi tədqiqində mövcud olan ideoloji yanaşmaları və onun milli ədəbi prosesə göstərdiyi uzunmüddətli təsiri ümumiləşdirilmiş bir şəkildə təhlil edir. Məqalədə aparılmış araşdırmalar nəticəsində müəyyən edilir ki, milli poeziyamızın inkişaf tarixində Şirvaninin yaradıcılığı klassik Şərq poeziyasının estetik prinsipləri ilə maarifçilik ideyalarının və tənqidi realizm ünsürlərini sintez edən nadir model kimi çıxış edir və bu baxımdan Azərbaycan ədəbiyyatında yazar əsas simalardan biri hesab olunur.

Tezisdə sovet və müasir ədəbiyyatşünaslıq mərhələləri müqayisəli-tarixi metod əsasında təhlil edilir.
Araşdırma göstərir ki, sovet dövrü ədəbiyyatşünaslığında Seyid Əzim Şirvaninin irsi daha çox ideoloji çərçivələr daxilində şərh edilmiş, onun dini-fəlsəfi və lirikasına birtərəfli yanaşılmışdır.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Bu mərhələdə şairin yaradıcılığı daha çox dini cəhalətə, fanatizmə qarşı mübarizə və maarifçi satira kontekstində təqdim olunmuş, İlahi eşq, sufizm və klassik poetik düşüncə “antirealist” meyarlarla qiymətləndirilmişdir.

Nəticədə isə Şirvaninin ədəbi şəxsiyyətinin bütöv mənzərəsi elmi cəhətdən qismən təhrif olunmuşdur. Tədqiqat zamanı istifadə olunan elmi mənbələrdən aydın olur ki, Seyid Əzim Şirvaninin irsi müxtəlif dövrlərdə fərqli ideoloji və metodoloji yanaşmalar əsasında qiymətləndirilmişdir.

M.Vahidovanın araşdırmalarında qeyd olunduğu kimi, sovet dövrü ədəbiyyatşünaslığında şairin yaradıcılığı əsasən ideoloji meyarlarla şərh edilmiş, bu isə onun bədii-fəlsəfi dünyagörüşünün birtərəfli təqdimatına səbəb olmuşdur. Müasir ədəbiyyatşünaslıqda isə bu yanaşma əsaslı şəkildə yenidən nəzərdən keçirilmişdir. Xüsusilə Flora Kərimova Seyid Əzim Şirvaninin yaradıcılığını “maarifçilik ideyaları ilə klassik poetik düşüncənin vəhdəti” kimi dəyərləndirərək, onun ictimai-siyasi və fəlsəfi baxışlarının dərinliyini ön plana çıxarır və şairin ədəbi irsinin çoxşaxəli mahiyyətini elmi əsaslarla ortaya qoyur.

Müasir ədəbiyyatşünaslıq mərhələsinin təhlili isə göstərir ki, ideoloji məhdudiyyətlərdən azad yanaşmalar Şirvaninin irsini daha obyektiv və kompleks şəkildə dəyərləndirməyə imkan vermişdir. Xüsusilə müasir tədqiqatlarda onun dini-fəlsəfi lirikasının Füzuli poetik ənənəsi ilə bağlılığı, qəzəl janrının dünyəviləşdirilməsi və poetik dilin sadələşdirilməsi istiqamətindəki yenilikləri elmi əsaslarla üzə çıxarılmışdır.

Bu yanaşma Şirvaninin yalnız maarifçi-satirik deyil, eyni zamanda dərin fəlsəfi-estetik düşüncəyə malik klassik şair olduğunu təsdiqləyir.

Tezisdə həmçinin, Seyid Əzim Şirvaninin sonrakı ədəbi nəsillərə təsiri xüsusi olaraq vurğulanır və onun XIX əsrdən XX əsrə keçid dövründə Azərbaycan ədəbiyyatında ideya-estetik körpü rolunu oynadığı göstərilir.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Xüsusilə onun satirik poeziyası Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabirin bədii dünyagörüşünün formalaşmasına, publisistik fəaliyyəti isə Azərbaycanın milli mətbuatının ən gözəl nümunələrindən biri "Molla Nəsrəddin" ədəbi məktəbinin ideya əsaslarının yaranmasına ciddi təsir göstərmişdir. Bu təsir təkcə poetik formalarla deyil, həm də sosial tənqid, maarifçilik və ictimai məsuliyyət anlayışı ilə xarakterizə olunur.

Bu kontekstdə görkəmli akademik İsa Həbibbəylinin "Seyid Əzim Şirvani Azərbaycan satirasının ideya-estetik əsaslarını hazırlayan sənətkarlardandır" fikri şairin Sabir yaradıcılığına və "Molla Nəsrəddin" ədəbi məktəbinin formalaşmasına göstərdiyi təsiri elmi baxımdan əsaslandırır.

Eyni zamanda, Şirvaninin pedaqoji fəaliyyəti, maarifçi görüşləri və "Rəbiül-ətfal", "Tacül-kütüb" kimi dərslikləri milli dildə təhsilin təşəkkülündə, yeni üsullu məktəblərin inkişafında və Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında mühüm mərhələ təşkil etmişdir. Bu fakt onun irsinin yalnız ədəbi deyil, həm də praktik-ictimai xarakter daşıdığını göstərir.

Nəticə etibarilə, tezis əsaslandırır ki, qüdrətli şair Seyid Əzim Şirvani irsi yalnız XIX əsrin tarixi-ədəbi hadisəsi kimi deyil, Azərbaycan ədəbiyyatının sonrakı inkişaf mərhələlərini müəyyənləşdirən davamlı ideya və estetik mənbə kimi dəyərləndirilməlidir. Onun yaradıcılığı müasir humanitar elmlər üçün aktual olan ədəbiyyat-ideologiya, klassika-modernləşmə və poeziya-maarifçilik münasibətlərinin öyrənilməsində fundamental elmi əhəmiyyətə malikdir. Onun yaradıcılığı həmişəyaşardır.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 39-42**
***Scientific Resources*** **XXV Republican Scientific Conference / 15 january 2026 / 39-42**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Günel Davidova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-3957-6378
guneldavidova@gmail.com

# Dramatik əsərlərin müqayisəli təhlili və tədrisdə tətbiqi

***Açar sözlər:*** *dramatik əsər, obrazların təhlili, süjet və konflikt, müqayisəli təhlil, tədris metodları*
***Keywords:*** *dramatic work, analysis of characters, plot and conflict, comparative analysis, teaching methods*

Bədii əsərlərin məzmununu, ideya istiqamətini və bədii xüsusiyyətlərini anlamaq, həmçinin əsərlərdəki obrazların oxşar və fərqli tərəflərini üzə çıxarmaq üçün müqayisəli təhlil mühüm və səmərəli bir yanaşma hesab olunur. Buna görə də bu metod bu gün də aktual və əhəmiyyətli qalır. Müqayisə yolu ilə aparılan təhlil əsərin daha dərindən qavranmasına, keçilmiş mövzuların yaddaşda möhkəmlənməsinə və şagirdlərin yeni mövzunu əvvəlkilərlə əlaqələndirə bilməsinə kömək edir.

*"Dram əsərlərinin təhlili zamanı aşağıdakı məqamların müəyyənləşdirilməsi vacibdir:*

– Dram əsərinin mövzusu;
– Süjet xətti və onun mərhələləri;
– Əsərdə təqdim olunan obrazların təhlili;
– Əsas qarşıdurmanın və problemin müəyyən edilməsi;
– Əsərin dili və bədii xüsusiyyətlərinin araşdırılması (dialoqlar, monoloqlar, remarkalar və s.)." (Yusifov, 2010, s. 97).

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Bu mərhələdə belə bir sual ortaya çıxır: bu cür əsərlərin təhlilinə hansı istiqamətdən başlamaq daha məqsədəuyğundur? Metodistlərin yanaşmaları müxtəlifdir. Bəzi mütəxəssislər əsərdəki obrazların təhlilindən, digərləri isə süjet xəttinin araşdırılmasından başlamağı zəruri hesab edirlər. Əslində isə əsas diqqət əsərin janr xüsusiyyətlərinə yönəldilməlidir. Məhz bu səbəbdən metodistlər komediyalarda əvvəlcə qəhrəmanların, dram və faciələrdə isə qarşıya qoyulan problemin və konfliktin araşdırılmasını daha doğru sayırlar.

Digər janrlarda da konfliktə rast gəlinir; lakin dramatik əsərlərin özəlliyi ondan ibarətdir ki, onların bədii strukturu məhz konflikt üzərində formalaşır. Təhlil zamanı şagirdlər həmin qarşıdurmanın dövrümüz üçün əhəmiyyətini də anlaya bilmə-lidirlər. Dramatik əsərdə konflikt həm də onun janrını müəyyən edən əsas göstəricidir. Məsələn, komediyalarda qarşıdurma digər janrlara nisbətən daha az gərgin olur. Bu qarşıdurmanın açılması və onun mahiyyətinin təhlili obrazların araşdırılması ilə yanaşı aparılır.

Dram əsərlərində, digər bədii nümunələrdə olduğu kimi, hər bir obrazın öz funksiyası mövcuddur. Bu əsərlərdə süjetin inkişaf xəttinə yaxın olan surətlər müəyyən qruplara bölünür. "Obrazların səciyyələndirilməsi dramatik nümunələrin təhlilin-də xüsusi yer tutur" (Muradov, 1992, s. 47). Qeyd olunduğu kimi, bu əsərlərin əsas dayağı konflikt olduğundan, qarşıdurma-nın hər iki tərəfində bir-birinə əks mövqedə dayanan, mübarizə aparan surətlər mövcud olur. Bəzən isə bir obraz bütün cəmiyyətlə üz-üzə gəlir və mübarizəni təkbaşına aparır. Hər iki halda konfliktin mahiyyətini və mübarizənin səbəblərini müqayisə yolu ilə daha aydın müəyyənləşdirmək mümkündür. "Müəllim təhlil zamanı xarakterləri təzad prinsipi əsasında bir-biri ilə və ya cəmiyyətlə üzləşdirərək onların xüsusiyyətlərini daha aydın şəkildə ortaya qoya bilər" (Veysova, 2007, s. 39).

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Dram əsərlərini təhlil edərkən şagirdlər hekayənin hansı mərhələdə başlandığını, hadisələrin necə irəlilədiyini, süjetin hansı anda düyünləşdiyini və bu düyünün hansı şəkildə açıldığını müəyyən etməlidirlər. "Şagirdlərin prosesi daha asan qavraması üçün müəllim müxtəlif əyani vasitələrdən yararlana bilər və ya hadisələrin inkişafını lövhədə sxem və ya qrafik şəklində təqdim edə bilər" (Hüseynoğlu, 2009, s. 65).

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərim əsaslanmaqla səciyyələndirir. | Fərqli vəziyyətlərdə nitqindən çıxış etməklə obrazları səciyyələndirir. |
| 1.2.4.Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Dramın ideya-məzmununu, süjet və kompozisiya xüsusiyyətlərini şərh edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarda sitatlardan, bodii təsvir və ifadə vasitələrindən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Dramla bağlı düşüncələrini müqayisə aparmaqla şərh edir. |
| 2.2.1.Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Müzakirə zamanı dialoji nitq bacarıqlarını nümayiş etdirir. |

Bu mərhələlər əsərin strukturunu aydın görməyə, hadisələr arasındakı əlaqələri düzgün müəyyənləşdirməyə və süjetin necə formalaşdığını sistemli şəkildə qavramağa imkan verir. Şagirdlər bu zaman təkcə hadisələrin ardıcıllığını deyil, həm də hər bir mərhələnin əsərin ümumi ideyasına nə dərəcədə xidmət etdiyini dərk edirlər. Bu cür yanaşma onların mətnlə işləmə bacarığını genişləndirir, mətnaltı məna və gizli məqamları daha

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

rahat tapmağa şərait yaradır. Sxem və qrafiklərdən istifadə şagirdlərə təhlil prosesini vizual şəkildə izləmək imkanı verir və dramatik əsərlərin dinamik quruluşunu daha aydın şəkildə görmələrinə kömək edir. Şagirdlər hadisələrin inkişaf xəttini yalnız əzbərləmir, həm də onun məntiqi ardıcıllığını dərk edərək əsərin bədii dünyasına daha dərindən nüfuz edirlər.

Dramatik əsərlərin müqayisəli təhlili şagirdlərə yalnız əsərin məzmununu və ideyasını anlamağa deyil, həm də obrazların xarakter xüsusiyyətlərini, süjetin inkişaf mərhələlərini və konfliktin mahiyyətini dərindən qavramağa imkan verir. Təhlil prosesi zamanı şagirdlər hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, obrazların funksiyasını və rolunu qiymətləndirir, həmçinin əsərin bədii xüsusiyyətlərini və dil vasitələrini təhlil edirlər. Müəllim tərəfindən əyani vasitələrdən, sxem və qrafiklərdən istifadə bu prosesi daha da effektiv edir. Nəticədə, dramatik əsərlərin sistemli təhlili şagirdlərin analitik düşüncə bacarığını inkişaf etdirir, ədəbi mətni daha dərindən qavramağa və müqayisəli yanaşmanı mənimsəməyə şərait yaradır, eyni zamanda onların ədəbi zövqünü və bədii düşüncəsini zənginləşdirir.

## Ədəbiyyat

1. Hüseynoğlu, S. (2009). *Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal-interaktiv bilik.*
2. Muradov, B. (1992). *Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi.*
3. Veysova, Z. (2007). *Fəal-interaktiv təlim: Müəllimlər üçün vəsait.*
4. Yusifov, F. (2010). *Ədəbiyyatın tədrisi metodikası.*

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 43-45
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 43-45
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Emil Qasımov**
Milli Müdafiə Universiteti
adyunkt
https://orcid.org/0009-0008-7764-6295
gasimovemil88@gmail.com

# Qanuni hərbi hədəflərin müəyyən edilməsi zamanı beynəlxalq səviyyədə mövcud çətinliklər: real hallar və hüquqi məsuliyyət

***Açar sözlər:*** *qanuni hərbi hədəf, beynəlxalq humanitar hüquq, hədəflərin müəyyən edilməsi, silahlı münaqişələrdə mütənasiblik prinsipi, hərbi zərurət prinsipi, hüquqi məsuliyyət*

***Keywords:*** *lawful military objective, international humanitarian law, target identification, principle of proportionality in armed conflicts, principle of millitary necessity, lagal responsibility*

Silahlı münaqişələr zamanı hədəflərin seçilməsi beynəlxalq humanitar hüququn (BHH) əsas və ən mürəkkəb institutlarından biridir. Hərbi əməliyyatların qanuniliyi birbaşa olaraq "qanuni hərbi hədəf" anlayışının düzgün müəyyən edilməsindən asılıdır.

Beynəlxalq humanitar hüququn tətbiqi yalnız normativ qaydaların mövcudluğu ilə deyil, həm də dövlətlərin bu qaydalara vicdanla əməl etməsi prinsipi ilə bağlıdır. Bu baxımdan beynəlxalq hüququn fundamental prinsiplərindən biri olan *pacta sunt servanda* ("bağlanmış müqavilələrə əməl olunmalıdır") prinsipi xüsusi əhəmiyyət daşıyır. 1969-cu il Vyana Konvensiyasının 26-cı maddəsində təsbit edilən bu prinsipə əsasən, dövlətlər ratifikasiya etdikləri beynəlxalq müqavilələri vicdanla icra etməlidirlər. Qanuni hərbi hədəf anlayışı 1949-cu il Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokolun 52-ci maddəsində normativ şəkildə təsbit edilmişdir. Həmin maddəyə

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

əsasən, hərbi hədəf dedikdə yalnız o obyektlər başa düşülür ki, təbiəti, yerləşdiyi yer, məqsədi və ya istifadəsi etibarilə hərbi fəaliyyətə səmərəli töhfə versin və onun tam və ya qismən məhv edilməsi konkret və birbaşa hərbi üstünlük yaratsın. Eyni zamanda I Əlavə Protokolun 48-ci maddəsi silahlı münaqişə tərəflərinə mülki əhali ilə döyüşçülər, mülki obyektlərlə hərbi obyektlər arasında daim fərqləndirmə aparmaq öhdəliyi qoyur.

1999-cu ildə NATO qüvvələrinin Yuqoslaviya Federativ Respublikasına qarşı apardığı hava əməliyyatları zamanı körpülərin, elektrik stansiyalarının və Serbiya Radio-Televiziya Mərkəzinin vurulması beynəlxalq hüquq baxımından ciddi mübahisələrə səbəb olmuşdur. NATO bu obyektləri hərbi və siyasi komanda-idarəetmə sisteminə töhfə verən obyektlər kimi qiymətləndirmişdir. Lakin *Human Rights Watch* və digər beynəlxalq qurumlar mülki itkilərin miqyasını nəzərə alaraq proporsionallıq prinsipinin pozulması ehtimalını vurğulamışdır (Alston, 2010). Bu case göstərir ki, ikiqat təyinatlı obyektlərin hərbi hədəf kimi müəyyən edilməsi beynəlxalq humanitar hüquqda ən problemli sahələrdən biridir (*Human Rights Watch*, “Civilian Deaths in the NATO Air Campaign”, 2000).

ABŞ-ın Pakistan və Yəmən ərazilərində pilotsuz uçuş aparatları vasitəsilə həyata keçirdiyi hədəfli zərbələrdə əsas hüquqi problem hədəf şəxslərin statusunun müəyyən edilməsidir. Beynəlxalq hüquq mütəxəssisləri bu əməliyyatlarda birbaşa döyüş əməliyyatlarında iştirak etməyən şəxslərin hədəf alınmasının fərqləndirmə prinsipinə zidd ola biləcəyini qeyd edirlər. Xüsusilə, kəşfiyyat məlumatlarının qeyri-dəqiqliyi mülki şəxslərin səhvən hərbi hədəf kimi qiymətləndirilməsi riskini artırır. I Əlavə Protokolun 51(5)(b)-ci maddəsinə əsasən, gözlənilən mülki itkilər əldə ediləcək hərbi üstünlüklə müqayisədə həddən artıq olmamalıdır (Roberts, 2004). Lakin real əməliyyat şəraitində bu balansın əvvəlcədən dəqiq müəyyən

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

edilməsi faktiki olaraq mümkün olmur. 2003-cü il İraq müharibəsində mülki infrastruktura dəyən ziyan bu prinsipin tətbiqindəki çətinlikləri açıq şəkildə nümayiş etdirmişdir.

Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarını milli qanunvericiliyinə inteqrasiya etmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 115-ci maddəsi silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasını, o cümlədən mülki əhaliyə və mülki obyektlərə qarşı hücumları cinayət əməli kimi nəzərdə tutur. 116-cı maddə isə müharibə zamanı qadağan olunmuş üsul və vasitələrdən istifadəni cinayət məsuliyyəti yaradan əməl kimi müəyyən edir. Bu normalar göstərir ki, Azərbaycan hüquq sistemi hərbi hədəflərin seçilməsində beynəlxalq hüquqi standartlara uyğunluğu təmin etməyə yönəlmişdir.

Aparılan təhlil göstərir ki, qanuni hərbi hədəflərin müəyyən edilməsi beynəlxalq humanitar hüququn normativ bazasına baxmayaraq, real silahlı münaqişələrdə ciddi hüquqi və praktiki problemlərlə müşayiət olunur. Real beynəlxalq case-lər fərqləndirmə və proporsionallıq prinsiplərinin tətbiqinin subyektiv xarakter daşıdığını ortaya qoyur.

## Ədəbiyyat

1. Alston, P. (2010) *Report of the Special Rapporteur on Extrajudicial Killings*, UN Doc. A/HRC/14/24/Add.6.
2. Human Rights Watch, *Civilian Deaths in the NATO Air Campaign* (2000).
3. Roberts, A. (2004) *The Law of War in the Iraq Conflict*, International & Comparative Law Quarterly.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 46-49**
***Scientific Resources*** **XXV Republican Scientific Conference / 15 january 2026 / 46-49**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Günay Vəliyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0009-0271-1766
gunayvalivey@gmail.com

# Alman dilində feillərin kateqoriyaları və onların tədrisində metodik yanaşmalar

***Açar sözlər***: *feil, qrammatik kateqoriya, alman dili, tədris metodikası, kommunikativ yanaşma*
***Keywords:*** *verb, grammatical category, German language, teaching methodology, communicative approach*

Xarici dil tədrisində qrammatik strukturların düzgün mənimsədilməsi dil bacarıqlarının formalaşmasında əsas amillərdən biri hesab olunur. Alman dilində feillər qrammatik sistemin mərkəzində dayanaraq zaman, şəxs, növ, təsirlik və şəkil kimi mühüm kateqoriyaları özündə birləşdirir. Bu kateqoriyaların öyrədilməsi dil öyrənənlərin həm yazılı, həm də şifahi nitqində düzgün və ardıcıl ifadə bacarıqlarının inkişafına birbaşa təsir göstərir. Feillərin kateqoriyalarının tədrisində səviyyəyə uyğunluq prinsipi xüsusi nəzərə alınmalıdır. Başlanğıc mərhələdə (A1–A2) feillərin zaman və şəxs kateqoriyalarının sadə izahı və tez-tez təkrarlanan strukturlar vasitəsilə təqdim edilməsi daha məqsədəuyğundur. Orta səviyyədə (B1–B2) isə feilin növ, təsirlik və modal xüsusiyyətlərinin kontekst daxilində izahı dil öyrənənlərin qrammatik düşünmə bacarığını inkişaf etdirir. Bu mərhələdə autentik mətnlərdən və kommunikativ tapşırıqlardan istifadə xüsusilə effektiv hesab olunur. Bundan əlavə, feillərin kateqoriyalarının tədrisində müqayisəli yanaşma mühüm metodik vasitə kimi çıxış edir. Alman və ana dili arasında

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

aparılan qrammatik müqayisələr oxşar və fərqli cəhətlərin aydınlaşdırılmasına, interferensiya hallarının azaldılmasına kömək edir (Helbig & Buscha, 2001). Müasir tədris mühitində rəqəmsal resursların, interaktiv tapşırıqların və vizual materialların tətbiqi feillərin kateqorial xüsusiyyətlərinin daha anlaşılan və yadda qalan formada təqdim edilməsinə imkan yaradır.

Tədris prosesində feillərin kateqoriyalarının mənimsədilməsi zamanı ənənəvi qrammatik izah metodları ilə yanaşı, müasir metodik yanaşmaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Kommunikativ və fəaliyyət yönümlü tədris metodları feillərin real nitq situasiyalarında istifadəsini təmin edərək öyrənənlərin qrammatik biliklərini praktik bacarıqlarla əlaqələndirməyə imkan yaradır. Xüsusilə kontekstual tapşırıqlar, dialoqlar və situativ məşqlər feillərin kateqorial xüsusiyyətlərinin daha asan və davamlı şəkildə qavranılmasına şərait yaradır. Alman dilinin öyrənilməsində feillər qrammatik sistemin ən mühüm elementlərindən biri hesab olunur. Feil cümlədə hərəkəti, vəziyyəti və ya prosesi ifadə etməklə yanaşı, zaman, şəxs və modal məna kimi qrammatik göstəricilərin daşıyıcısıdır. Buna görə də alman dilinin tədrisi prosesində feillərin kateqoriyalar üzrə düzgün mənimsədilməsi öyrənənlərin dil bacarıqlarının formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Feillərin mürəkkəb quruluşu və çoxsaylı qrammatik xüsusiyyətləri isə onların tədrisində məqsədyönlü metodik yanaşmaların tətbiqini zəruri edir (Dudenredaktion, 2016).

Alman dilində feillər müxtəlif meyarlara əsasən kateqoriyalara bölünür. Ən geniş yayılmış bölgülərdən biri feillərin quruluşuna görə təsnifatıdır. Bu baxımdan feillər sadə və prefiksli feillərə ayrılır. Prefiksli feillər isə öz növbəsində ayrılan və ayrılmayan feillər kimi qruplaşdırılır. Ayrılan feillər cümlədə zaman formasından asılı olaraq hissələrə bölünə bildiyi halda,

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

ayrılmayan feillər bütöv şəkildə işlədilir. Bu xüsusiyyət alman dili öyrənənlər üçün ciddi çətinlik yaradan məqamlardan biridir.

Feillərin digər mühüm kateqoriyası onların qrammatik dəyişmə xüsusiyyətlərinə əsaslanır. Bu baxımdan feillər zəif, güclü və qarışıq feillər kimi təsnif edilir. Zəif feillər keçmiş zamanda və particip formalarında müntəzəm şəkilçi qəbul edir, güclü feillərdə isə kök sait dəyişməsi müşahidə olunur. Qarışıq feillər isə hər iki xüsusiyyəti qismən özündə birləşdirir. Bu fərqlər zaman formalarının öyrədilməsində xüsusi diqqət tələb edir.

Funksional baxımdan feillər əsas, köməkçi və modal feillərə bölünür. Köməkçi feillər zaman formalarının qurulmasında iştirak edir, modal feillər isə hərəkətin mümkünlüyünü, zəruriliyini və ya istək formasını ifadə edir. Modal feillərin məna çalarları kontekstdən asılı olaraq dəyişdiyinə görə onların tədrisi zamanı yalnız qrammatik qaydalarla kifayətlənmək məqsədəuyğun hesab edilmir.

Feillərin öyrədilməsi prosesində qarşıya çıxan əsas problemlərdən biri öyrənənlərin qaydaları mexaniki şəkildə əzbərləməsidir. Bu yanaşma praktiki ünsiyyətdə səhvlərin artmasına səbəb olur. Buna görə də müasir metodikada kommunikativ yanaşma ön plana çəkilir. Bu yanaşma feillərin real nitq situasiyalarında, dialoq və mətnlər vasitəsilə öyrədilməsini nəzərdə tutur. Belə halda şagird və ya tələbə feilin yalnız formasını deyil, həm də funksional istifadəsini dərk edir.

Digər effektiv metodik yanaşma müqayisəli üsuldur. Alman dili feillərinin Azərbaycan dili feilləri ilə müqayisəsi oxşar və fərqli cəhətlərin daha aydın başa düşülməsinə imkan yaradır. Bu üsul xüsusilə feil zamanlarının və modal konstruksiyaların tədrisində müsbət nəticə verir. Eyni zamanda vizual materiallardan, cədvəllərdən və sxemlərdən istifadə feillərin sistemləşdirilməsini asanlaşdırır və yadda saxlanmasını gücləndirir (Kazımov & Rzayeva, 2021).

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Nəticə olaraq qeyd etmək olar ki, alman dilində feillərin kateqoriyalar üzrə öyrədilməsi və müasir metodik yanaşmaların tətbiqi dil tədrisinin səmərəliliyini artırır. Feillərin yalnız nəzəri deyil, praktik əsasda öyrədilməsi öyrənənlərin dil bacarıqlarının inkişafına və düzgün ünsiyyət qurmasına şərait yaradır. Bu baxımdan müəllimin metod seçimi və dərsin təşkili alman dilinin tədrisində həlledici rol oynayır. Aparılan metodik təhlil göstərir ki, feillərin kateqoriyalarının tədrisində müasir yanaşmaların tətbiqi təlim prosesinin effektivliyini artırır və öyrənənlərin dilə marağını yüksəldir. Nəticə etibarilə, alman dilində feillərin kateqoriyalarının tədrisində metodların məqsədyönlü seçilməsi dil təliminin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Pedaqoji təcrübə göstərir ki, feillərin kateqoriyalarının mərhələli və sistemli şəkildə tədrisi öyrənənlərin dil kompetensiyasının formalaşmasında mühüm rol oynayır. Metodik baxımdan düzgün qurulmuş dərs modeli feillərin qrammatik funksiyalarının real nitq fəaliyyəti ilə əlaqələndirilməsini təmin edir və dil öyrənmə prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir (Richards & Rodgers, 2014).

## Ədəbiyyat

1. Dudenredaktion. (2016). *Duden – Die Grammatik*. Dudenverlag.
2. Helbig, G., & Buscha, J. (2001). *Deutsche Grammatik: Ein Handbuch für den Ausländerunterricht*. Langenscheidt.
3. Kazımov, T., & Rzayeva, S. (2021). *Alman dilində feilin kateqoriyaları*.
4. Richards, J. C., & Rodgers, T. S. (2014). *Approaches and Methods in Language Teaching*. Cambridge University Press.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Gülnarə Məmmədova**
Lənkəran Dövlət Universiteti
coğrafiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-5504-230X
mammedova_gulnare@mail.ru
**Məhəmməd Əliyev**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-7038-7631
mehemmede549@gmail.com

# XI sinifdə coğrafiya fənninin tədrisində innovativ yanaşmalar, interaktiv metodlar və İKT-dən istifadənin əhəmiyyəti

***Açar sözlər:*** *coğrafiya fənni, innovativ tədris, interaktiv metodlar, İKT, XI sinif*
***Keywords:*** *geography, innovative teaching, interactive methods, ICT, 11th grade*

Azərbaycanda həyata keçirilən müasir təhsil islahatları təlim prosesinin keyfiyyətinin yüksəldilməsini əsas məqsəd kimi qarşıya qoyur. Kurikulum islahatları nəticəsində şagirdyönümlü və kompetensiya əsaslı tədris modelinə keçid təmin edilmişdir. Bu yanaşma coğrafiya fənninin tədrisində şagirdlərin fəal iştirakını və tədqiqat bacarıqlarının inkişafını ön plana çıxarır (Əliyev, 2021).

Coğrafiya dərslərində innovativ və interaktiv metodlardan istifadə təlim prosesinin səmərəliliyini artırır. Müzakirə, qrup işi, beyin həmləsi, layihə metodu kimi interaktiv üsullar şagirdlərin analitik düşünmə qabiliyyətini inkişaf etdirir, onların coğrafi hadisə və prosesləri daha dərindən qavramasına imkan yaradır.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Bu metodlar dərs zamanı şagird fəallığını artırmaqla yanaşı, əməkdaşlıq və ünsiyyət bacarıqlarının formalaşmasına da müsbət təsir göstərir (Məmmədov, 2020).

XI sinifdə coğrafiya fənninin tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadənin geniş imkanları mövcuddur. Elektron dərsliklər, rəqəmsal xəritələr, interaktiv atlaslar və multimedia resursları dərs materiallarının vizual və anlaşılan formada təqdim olunmasını təmin edir. Onlayn platformalar və elektron resurslar vasitəsilə şagirdlər coğrafi məlumatları təhlil edə, müqayisə aparma bacarıqlarını inkişaf etdirə bilirlər. İKT-nin tətbiqi təlim prosesini daha çevik və səmərəli edir.

Müasir tədris yanaşmalarının tətbiqi nəticəsində şagirdlərin fənnə marağı artır, onların müstəqil öyrənmə bacarıqları formalaşır və təlim nəticələri yüksəlir. Bu baxımdan coğrafiya fənninin tədrisində innovativ metodların və İKT-nin tətbiqi müasir təhsil tələblərinə cavab verən vacib amillərdən biri hesab olunur (Qədirova, 2019).

Aparılan təhlil göstərir ki, XI sinifdə coğrafiya fənninin tədrisində innovativ yanaşmaların, interaktiv metodların və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu yanaşmalar şagirdlərin bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir və coğrafiya təliminin səmərəliliyini artırır.

## Ədəbiyyat

1. Əliyev, R. (2021). *Müasir təhsil islahatları və kurikulum*. Bakı.
2. Məmmədov, A. (2020). *Coğrafiya fənninin tədris metodikası*. Bakı.
3. Qədirova, L. (2019). *Təhsildə innovativ təlim metodları*.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 52-54
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 52-54
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Rahib Nəsirov**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0000-9336-0627
rahibnasirr@gmail.com

# Azərbaycanda xalq təbabəti məhsullarının innovativ inkişaf istiqamətləri (Herba Flora şirkətinin timsalında)

***Açar sözlər:*** *xalq təbabəti, innovasiya, bitki tərkibli məhsullar, Herba Flora, elmi-texniki inkişaf*
***Keywords:*** *folk medicine, innovation, herbal products, Herba Flora, scientific progress*

Azərbaycanda xalq təbabəti məhsullarının innovativ inkişafı bu sahənin davamlılığını təmin edən əsas istiqamətlərdən biridir. İnnovativ inkişaf dedikdə istehsalın müasir texnologiyalar, yeni elmi yanaşmalar və təkmilləşdirilmiş metodlarla yenidən qurulması başa düşülür (Əliyev, 2003).

Bitki mənşəli müalicəvi vasitələrə olan tələbatın artması innovasiyaların tətbiqini daha vacib edir, çünki dünya bazarında rəqabət güclənmişdir və istehsalçıların yeni texnologiyalara inteqrasiyası zərurətə çevrilmişdir (Səlikov, 2008).

*Herba Flora* şirkətinin fəaliyyəti əsasında xalq təbabəti məhsullarının innovativ inkişaf istiqamətlərini bir neçə əsas qrupda qiymətləndirmək mümkündür:

• **Elmi tədqiqatların dərinləşdirilməsi və yeni formulaların hazırlanması** – Təbii bitkilərin kimyəvi tərkibinin öyrənilməsi, onların dərman xüsusiyyətlərinin elmi şəkildə təsdiqlənməsi məhsulların keyfiyyətini və effektivliyini artırır. *Herba Flora* müxtəlif dərman bitkilərinin ekstraksiyası, təhlili

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

və yeni qarışıqların hazırlanması üzrə elmi laboratoriyalarla əməkdaşlıq edir (Yaliyev et al., 2016).

• **İstehsal prosesinin modernləşdirilməsi** – İnnovativ texnologiyaların tətbiqi məhsulların təhlükəsizliyini və keyfiyyət sabitliyini təmin edir. Müasir qurutma, üyütmə, ekstraksiya və qablaşdırma avadanlıqları xalq təbabəti məhsullarının beynəlxalq standartlara uyğun istehsalını mümkün edir. Şirkətdə həyata keçirilən texnoloji yeniliklər məhsulların daha uzunmüddətli saxlanılması və effektivliyinin qorunmasına şərait yaradır (*Herba Flora*, n.d.).

• **Keyfiyyətə nəzarət və beynəlxalq sertifikatlaşdırma** – Hal-hazırda *Herba Flora* məhsullarının yerli bazarda tanınması yüksək olsa da, beynəlxalq bazara çıxış üçün ISO, GMP kimi sertifikatlar tələb olunur. Bu sertifikatların alınması innovativ inkişafın əsas mərhələlərindən biridir və məhsulların dünya bazarında rəqabət qabiliyyətini artırır (Əlirzayev, 2002).

• **Rəqəmsal yanaşmalar və marketinq innovasiyaları** – Xalq təbabəti məhsullarının istehlakçıya tanıdılması üçün rəqəmsal satış kanalları, onlayn reklam, elektron ticarət platformalarının tətbiqi innovasiyanın mühüm hissəsidir. *Herba Flora* son dövrlər rəqəmsal marketinqə daha çox önəm verərək istehlakçı auditoriyasını genişləndirmişdir (Elibrary.az, n.d.).

• **Təbii resurslardan səmərəli istifadə** – Azərbaycanın müxtəlif bölgələri zəngin bitki ehtiyatlarına malikdir. Bu resursların elmi şəkildə öyrənilməsi və davamlı istifadəsi innovativ inkişafın mühüm hissəsidir. *Herba Flora* ölkənin dağlıq və meşə zonalarında bitən dərman bitkilərindən istifadə edərək yeni məhsul çeşidləri yaradır (Elibrary.az, n.d.).

Xalq təbabəti məhsullarının innovativ inkişaf istiqamətləri yalnız istehsalın təkmilləşdirilməsi ilə məhdudlaşmır, həmçinin kadr potensialının gücləndirilməsini də tələb edir. Bioloq, fitoterapevt, laboratoriya mütəxəssisi kimi sahələrdə çalışan

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

kadrların müasir elmi yeniliklərə uyğun hazırlanması məhsulların keyfiyyətinə birbaşa təsir edir (Şəkərəliyev və Əliyev, 2002).

Yekun olaraq qeyd edilə bilər ki, Azərbaycanda xalq təbabəti məhsullarının innovativ inkişafı üçün elmi-texniki baza gücləndirilməli, yeni texnologiyalar tətbiq edilməli, beynəlxalq standartlara uyğun istehsal mexanizmləri qurulmalıdır. *Herba Flora* şirkətinin timsalında aparılan təhlil göstərir ki, düzgün strategiya və müasir innovativ yanaşmalarla bu sahənin inkişaf perspektivləri genişdir və həm yerli, həm də dünya bazarında daha rəqabətqabiliyyətli məhsulların yaradılması mümkündür (eReforms, n.d.).

## Ədəbiyyat


1. Elibrary.az. (n.d.). *Azərbaycan flora ehtiyatları haqqında elmi araşdırmalar*. https://www.elibrary.az
2. eReforms. (n.d.). *İxrac potensialı və investisiya təşviqi*. https://ereforms.gov.az
3. Əlirzayev, Ə. H. (2002). *İqtisadiyyat: Düşüncələr, baxışlar*.
4. Əliyev, A. (2003). *Azərbaycanın iqtisadi siyasəti: Xarici ticarət və iqtisadi əlaqələr*. Qanun.
5. Herba Flora. (n.d.). *Herba Flora şirkətinin rəsmi məlumatları*. https://herba-flora.com
6. Səlikov, İ. F. (2008). *Xalq təbabətindən bir damla*. ASSA MMC.
7. Şəkərəliyev, A. Ş., & Əliyev, A. (2002). *Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti*. İqtisad Universiteti Nəşriyyatı.
8. Yaliyev, F. Dzh., Shcheynov, R. I., Gurbanov, G. B., Taiyev, R. M. (2016). *Bitkiler — menedzher. Vyaz.*

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 55-58**
***Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 55-58**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Nərmin Məmmədova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-8608-0658
mammedovanarmin17@gmail.com

# Pedaqoji monitorinq və qiymətləndirmənin tədris keyfiyyətinə təsiri

***Açar sözlər:*** *monitorinq, qiymətləndirmə, keyfiyyət, təhsil, inkişaf*
***Keywords:*** *monitoring, evaluation, quality, education, development*

Təhsilin keyfiyyəti hər bir cəmiyyətin sosial-iqtisadi inkişafının, intellektual potensialının və gələcək perspektivlərinin əsas göstəricisidir. Müasir dövrdə inkişaf etmiş ölkələrin təhsil sistemində aparılan təcrübə göstərir ki, təhsil yalnız bilik ötürmə prosesi deyil, həm də insan kapitalının formalaşdırılması, vətəndaşların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, əmək bazarına hazırlıq və cəmiyyətin demokratik dəyərlərə əsaslanan idarə olunmasında mühüm vasitədir. Məhz buna görə də təhsil sisteminin keyfiyyətli təşkili, tədrisin effektivliyi və müəllim fəaliyyətinin səmərəliliyi dövlət siyasətinin əsasını təşkil edən məsələlərdən biridir. Tədris keyfiyyətinin yüksəldilməsində və formalaşdırılmasında isə monitorinq və qiymətləndirmə əsas mexanizmlərdən sayılır.

Monitorinq pedaqoji prosesdə həyata keçirilən işlərin və nəticələrin mütəmadi izlənilməsi, onların müqayisəli şəkildə təhlili və inkişaf yönümlü qərarların qəbul edilməsidir. Təhsil müəssisələrində aparılan monitorinqlər müəllimlərin metodik fəaliyyətinin, şagirdlərin öyrənmə nailiyyətlərinin, tədris proq-

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

ramlarının və ümumilikdə pedaqoji mühitin vəziyyətini əks etdirir. Monitorinqin ən mühüm xüsusiyyətlərindən başlıcası onun davamlı olmasıdır. Yəni bu proses yalnız bir dəfə həyata keçirilmir, ardıcıl şəkildə aparılır və hər yeni nəticə əvvəlki nəticələrlə müqayisə edilir. Bu, təhsildə mövcud vəziyyətin obyektiv mənzərəsini yaratmağa və keyfiyyəti artırmaq üçün zəruri addımlar atmağa imkan verir. Monitorinq təhsilin keyfiyyətinin artırılması üçün həyata keçirilən əsas tədbirlərdən biridir.

Qiymətləndirmə isə təhsilin əsas tərkib hissəsi olub şagirdlərin bilik və bacarıqlarını, müəllimlərin məktəbdəki fəaliyyətini və tədris prosesinin səmərəliliyini yoxlayan bir vasitədir. Ənənəvi qiymətləndirmə əsasən şagirdlərin nəticələrinin rəqəmsal ifadəsi ilə məhdudlaşsa da, yeni yanaşmalar qiymətləndirməni həm nəticələrin yoxlanılması, həm də öyrənmə prosesinə dəstək vasitəsi kimi nəzərdən keçirir. Bu baxımdan qiymətləndirmə təkcə yekun bal deyil, həm də şagirdlərə öz güclü və zəif tərəflərini göstərən, onların öyrənməyə motivasiyasını artıran bir pedaqoji mexanizmdir. Buna görə də müasir təhsil sistemlərində formativ qiymətləndirmə əhəmiyyətli yer tutur. Formativ qiymətləndirmə şagirdin öyrənmə prosesində davamlı izlənməsinə xidmət edir. Bu metod şagirdin özünü qiymətləndirməsinə, təlim prosesinə daha şüurlu yanaşmasına və nailiyyətlərini artırmasına kömək edir. Summativ qiymətləndirmə isə tədris prosesinin sonunda şagirdin əldə etdiyi bilik və bacarıqları ümumiləşdirərək yekun nəticəni göstərir.

Monitorinq və qiymətləndirmə tədris keyfiyyətinə əsaslı təsir göstərir. İlk növbədə, bu proseslər müəllimlərin fəaliyyətini tədqiq edir və nizamlayır. Müəllim monitorinq nəticəsində öz dərs prosesində hansı metodların effektli olduğunu, hansılarının isə zəif nəticə verdiyini görür və sonrakı mərhələdə öz fəaliyyətini təkmilləşdirir. Bu, müəllimlərin peşəkarlığının artmasına,

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 55-58
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 55-58
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

müasir pedaqoji texnologiyalardan daha fəal istifadə etməsinə şərait yaradır. Digər tərəfdən, qiymətləndirmə prosesində əldə olunan nəticə müəllim üçün tədris prosesini şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırmaq baxımından əhəmiyyətli olur. Məsələn, qiymətləndirmə zamanı məlum olur ki, bəzi şagirdlər məntiqi tapşırıqlarda çətinlik çəkir, digərləri isə yazılı ifadədə zəifdir.

Bu məlumatlar əsasında müəllim yeni tədris yanaşmalarını və innovativ texnologiyaları tətbiq edərək hər bir şagirdin inkişafına dəstək verir. Şagirdlər baxımından isə monitorinq və qiymətləndirmə onların öyrənmə prosesinə motivasiyasını artırır. Əgər şagird öz nəticələrini həmişə izləyirsə və hər dəfə əvvəlkindən daha yaxşı nəticə əldə edirsə, bu zaman öyrənməyə marağı yüksəlir. Əksinə, nəticələrin zəif olduğu hallarda şagird özündəki boşluqları görür və onları aradan qaldırmaq üçün daha çox çalışır. Beləliklə, monitorinq və qiymətləndirmə şagirdin fərdi inkişafı üçün güclü stimuldur.

Təhsil sistemində keyfiyyət anlayışı yalnız akademik göstəricilərlə məhdudlaşmır. Keyfiyyət həm də tədris mühitinin sağlamlığı, müəllim–şagird münasibətlərinin səmimiliyi, valideyn–məktəb əməkdaşlığının gücü və təhsil müəssisəsinin cəmiyyət qarşısında şəffaflığı ilə ölçülür. Monitorinq və qiymətləndirmə bu baxımdan təhsildə şəffaflığı təmin edir, valideynlərə övladlarının nəticələri barədə obyektiv məlumat verir və məktəbin ictimaiyyət qarşısında hesabatlı fəaliyyət göstərməsinə şərait yaradır. Əlavə olaraq, pedaqoji monitorinqin nəticələri dövlət səviyyəsində də mühüm rol oynayır. Təhsil Nazirliyi və digər aidiyyəti qurumlar məhz monitorinq nəticələrinə əsaslanaraq ölkənin təhsil strategiyasını formalaşdırır, yeni proqramlar və islahatlar həyata keçirir. Bu isə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına, rəqabət qabiliyyətinin artırılmasına və qlobal təhsil məkanında ölkənin

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 55-58
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 55-58
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

mövqeyinin gücləndirilməsinə imkan verir. Burada nəticə və inkişaf anlayışları bir-biri ilə sıx bağlıdır. Nəticələrin izlənməsi təhsilin inkişafını təmin edir, inkişaf isə yeni nəticələr doğurur.

Beləliklə, pedaqoji monitorinq və qiymətləndirmə tədris keyfiyyətinə hərtərəfli təsir göstərən əsas mexanizmlərdir. Onlar müəllimlərin peşəkar fəaliyyətini optimallaşdırır, şagirdlərin öyrənmə motivasiyasını formalaşdırır, valideynlərlə məktəb arasında əməkdaşlığı gücləndirir, təhsil müəssisələrinin hesabatlılığını təmin edir və dövlət səviyyəsində təhsil siyasətinin düzgün formalaşdırılmasına şərait yaradır. Monitorinq və qiymətləndirmə olmadan tədris prosesinin obyektiv qiymətləndirilməsi, problemlərin müəyyənləşdirilməsi və keyfiyyətin yüksəldilməsi mümkün deyil. Təhsil keyfiyyətinin artırılması isə hər bir ölkənin gələcək inkişafı, intellektual potensialının gücləndirilməsi və cəmiyyətin tərəqqisi üçün mühüm şərtdir

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 59-61
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 59-61
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Həqiqət Əsgərova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0005-8467-3556
hegigetesgerova06@gmail.com

# Klassik Azərbaycan ədəbiyyatında arxaik əvəzliklərin müasir dildə izi

***Açar sözlər:*** *əvəzlik, klassik Azərbaycan dili, müasir dil, arxaik leksik vahidlər, dil irsi*

***Keywords:*** *pronoun, classical Azerbaijani literary language, modern Azerbaijani language, archaic lexical units, linguistic heritage*

Azərbaycan ədəbi dilinin tarixi inkişafında klassik Azərbaycan ədəbiyyatı mühüm mərhələ təşkil edir. Orta əsrlərdən etibarən formalaşan klassik ədəbi dil müasir Azərbaycan dilinin qrammatik və üslubi sisteminin, o cümlədən əvəzliklər sisteminin yaranmasında əhəmiyyətli rol oynamışdır. Klassik ədəbiyyatda işlənən əvəzliklərin müasir dildəki vəziyyətinin araşdırılması Azərbaycan dilinin tarixi qrammatikasının və leksikologiyasının əsas problemlərindən biri hesab olunur.

Klassik Azərbaycan ədəbiyyatının dilində əvəzliklər, əsasən, türkmənşəli olmuş, lakin dövrün dil xüsusiyyətlərinə uyğun olaraq onların bir hissəsi müasir dildən fonetik, morfoloji və semantik baxımdan fərqlənmişdir. Xüsusilə *şəxs əvəzliklərinin* qədim formaları — *bən (mən), sən, ol (o)* — klassik poeziyada geniş şəkildə işlədilmişdir. Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai kimi sənətkarların əsərlərində bu əvəzliklər həm dilin tarixi xüsusiyyətlərini əks etdirmiş, həm də bədii ifadə vasitəsi kimi çıxış etmişdir.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Klassik mətnlərdə işarə əvəzlikləri (*ol, şol*), qeyri-müəyyən əvəzliklər (*kimsə, bir kimsə, hər kəs*) və sual əvəzlikləri (*kim, nə*) də fəal şəkildə işlənmişdir. Bu əvəzliklər cümlədə mübtəda, tamamlıq və ya xəbər vəzifəsində çıxış edərək mətnin məna yükünü gücləndirmişdir.

Müasir Azərbaycan dilində klassik ədəbiyyatdan gələn əvəzliklər funksional baxımdan müxtəlif qruplara ayrılır. Bir qismi — *filan, hər kəs*, *kimi, öz* — semantik dəyişməyə uğramadan bu gün də aktiv şəkildə işlədilir. Digər bir qrup əvəzliklər isə — *bən, ol, şol* — arxaikləşərək yalnız klassik poeziyada və tarixi-bədii mətnlərdə qorunub saxlanılmışdır. Bu əvəzliklərin öyrənilməsi klassik ədəbi dilin xüsusiyyətlərini və müasir dil ilə əlaqəsini aydınlaşdırmaq baxımından böyük əhəmiyyət daşıyır.

*Məhəmməd Füzulinin əsərindən verilmiş əvəzliyə nəzər salmaq yerinə düşərdi:*

Mən həm ol ruhfəza rahi tökəm sağərə kim,
Nəxli-himmət rəşəhatından ala nəşvü nüma (Füzuli, 2005, s. 56)

Ə. Tanrıverdiyə görə, dilin arxaik qatında bu vahid qo//o; qol//ol paralelləri ilə təmsil olunmuş, zaman keçdikcə fonetik sadələşmə nəticəsində müasir ədəbi dilimizdə "o" forması sabitləşmişdir.

Beytdəki "ol" sözü konkret olaraq işarə etmə, uzaqlıq semantikası daşıyır. Burada "ol ruhfəza rah" ifadəsi sadəcə "o yol" mənasında deyil, müəyyənləşdirilmiş, mənəvi dəyəri olan, müqəddəs və ya ali bir yol anlamını verir. Bu isə arxaik "ol" əvəzliyinin semantik yükünün müasir "o" formasına nisbətən daha geniş və poetik olmasını göstərir.

Beləliklə, nümunə sübut edir ki, "ol" əvəzliyi müasir "o" formasının arxaik variantı olmaqla yanaşı, klassik ədəbiyyatda

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

xüsusi üslubi-semantik funksiya daşıyır və dilimizin tarixi inkişaf mərhələlərinin canlı izi kimi çıxış edir.

Qalu bəladan sidq ilə canım dolaşdı zülfünə,
Dövlətlü canim bəndədir həşmətli zülfü xalına. (Nəsimi, 2004, s. 63)

Bu beytdə işlənən "bən" əvəzliyi klassik Azərbaycan poeziyasına xas olan dil xüsusiyyətidir. "Bən" sözü müasir Azərbaycan dilində işlənən "mən" şəxs əvəzliyinin qədim formasıdır və birinci şəxsin təkini bildirir.

*"Bən" şəxs əvəzliklərinin inkişafını Ə.Rəcəbli belə təsəvvür edir:*

bi+n > bin > ben >bən I şəxs bi min > men > mən.

Nəticə olaraq qeyd etmək olar ki, klassik Azərbaycan ədəbiyyatında işlənən əvəzliklərin müasir dildəki vəziyyəti Azərbaycan dilinin tarixi inkişaf mərhələlərini əks etdirən mühüm dil faktıdır. Bu leksik irsin öyrənilməsi müasir Azərbaycan dilinin formalaşma yollarını və leksik zənginliyini elmi əsaslarla müəyyənləşdirməyə imkan verir.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 62-65
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 62-65
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
https://orcid.org/0009-0001-1812-282X
tahibrahimov287@gmail.com

# İnsanlıq hissiyyatı tədricən doğrudanmı məhv olur?

***Açar sözlər:*** *insanlıq, hissiyyat, orqanizm, həyat*
***Keywords:*** *humanity, feelings, organism, life*

Yəqin qeyd etsək ki, bu mövzuda hamının fikirləşdiyi və düşündüyü məsələlər vardır, səhv etmərik. Eyni zamanda müşahidə etdiyimiz və eşitdiyimiz hadisələr bu mövzuya müraciət etməyimizə səbəb oldu.

*Bu zaman bir neçə sualın cavabını tapmağa çalışdım:*

1. Ümumiyyətlə, insanlıq hissiyyatı nədir?
2. İnsanlıq hissiyyatı nə vaxt yaranmışdır?
3. Bu hissiyyat hamıda eynidirmi?

Elm aləminə insanın hiss üzvlərinin quruluşu haqqında, yerinə yetirdikləri bütün funksiyalar məlumdur. İnsanlıq hissiyyatı ilə əlaqədar olan qaranlıq qalan məsələlər çoxdur. Həmin qaranlıq olan məsələlər Yer üzərində bütün canlılar aləminin məhvinə səbəb ola bilər. Bunu insanlar arasında baş verən hadisələr sübut edir. Bir neçəsini qeyd etməklə baş vermə səbəblərini izah etməyə çalışacağıq. Mətbuatda, televiziya verilişlərində məlumat verildi ki, ata avtomobili sürmək üçün 17 yaşlı oğluna vermişdir. O da avtomobillə səkkizinci sinif şagirdini vurmuşdur. Ailənin yeganə övladı olan şagird həlak olmuşdur. Avtomobilin sahibi olan ata oğluna haqq qazandıraraq sosial şəbəkələrdə paylaşım etmişdir. 15–20 il əvvəl belə hadisələr baş versəydi, xəsarət almış ailəyə köməklik göstərilərdi. Maddi və mənəvi cəhətdən yardımlar edilərdi.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

Verilişlərin birində belə bir xəbər verildi. Ana iki körpə uşağını ataraq ailədən qaçmışdır. Ana körpə uşaqlarına baxmaqdan imtina etmişdir. Nəticədə o, analıq hüququndan məhrum edilmişdir. Körpə üçün ananı heç kim, heç nə əvəz edə bilməz. Analıq hissiyyatı nə üçün məhv olmuşdur? Başqa bir misal: xəbərlər proqramının birində belə bir məlumat verildi ki, ata həyat yoldaşını üç azyaşlı övladı ilə birlikdə ataraq xarici ölkələrdən birinə getmiş, bir daha geri qayıtmamışdır. Orada yenidən ailə qurmuşdur. Azərbaycanlı ana üç körpə övladını təkbaşına, çox çətinliklə böyütmüş, onlara təhsil vermişdir. Əvvəllər ata övladı üçün canından keçirdi. Atalıq hissiyyatı nə üçün tədricən məhv olur? İnsanlıq hissiyyatının tədricən məhv olması ilə əlaqədar biz hər gün, hər yerdə müxtəlif hadisələrin şahidi oluruq. Bu zaman bunun səbəblərini müxtəlif cür izah etməyə çalışırıq. Səbəblər hansılardır?

İnsanlıq hissiyyatı şüurdan əvvəl yaranmışdır, insana Allahtəala tərəfindən verilmişdir. Hər bir insanın orqanizmində hissiyyat müxtəlifdir. İnsanlıq hissiyyatı eyni olan iki insan Yer üzərində mövcud deyildir.

*Lakin hissiyyatlar nə qədər fərqli olsa da, hamısı eyni məqsədə xidmət etməlidir:*

1. Bütün insanlar bir-birinə kömək etməlidir;
2. İnsan elm öyrənməlidir;
3. Yer üzərində ekoloji vəziyyət qorunmalıdır.

İnsanlıq hissiyyatı mühit amillərinin təsiri ilə tədricən yaranmışdır. Respublikamızın ərazisində hər cür iqlim amillərini müşahidə etmək mümkündür. Müşahidələrimizə əsasən qeyd edə bilərik ki, ölkəmizdə insanlar arasında insanlıq hissiyyatı həmişə çox yüksək səviyyədə olmuşdur.

*Bu, daha çox mühit amilləri və sosial-iqtisadi məsələlərlə əlaqədardır. Bir neçə misal göstərək:*

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 62-65
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 62-65
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

1. Marşrut avtobuslarının birində sərnişinin əhvalı qəflətən pisləşir. O, özündən gedir. Sürücü avtobusu saxlayır. Təcili yardım çağırılır. Vəziyyəti öyrənən polis işçisi xəstəni öz maşını ilə xəstəxanaya çatdırır.
2. Bir neçə il öncə çox təhlükəli bir cinayətkar uşağı girov götürmüşdü. Cinayətkar heç kimi yaxına buraxmırdı, partlayıcını işə salacağı ilə hədələyirdi. Bu zaman polis işçisi özünü partlayıcının üstünə atmışdır. Uşaq xilas edilmiş, cinayətkar isə həlak olmuşdur.
3. Yaşlı bir qadın küçədə təmizlik işləri ilə məşğul idi. Qış ayları idi, hava çox soyuq idi, sulu qar yağırdı. Yoldan keçən başqa bir qadının qucağında körpə uşaq var idi, həmin qadının paltarı islanmışdı, soyuqdan titrəyirdi. Adamlardan çörək pulu istəyirdi. Bu zaman təmizlik işlərinə baxan qadın süpürgəni kənara atdı, uşaqlı qadına yaxınlaşdı, ona pul verdi. Başındakı şalı açaraq uşağı bükdü.

Bu misalları ona görə qeyd etdik ki, insanlıq hissiyyatı maddi vəziyyətdən, şəxsin hansı işlə məşğul olmasından asılı deyildir. Bu hissiyyat insanın daxili mühiti ilə əlaqədardır. İnsanlıq hissiyyatının gücü bütün insanlarda müxtəlifdir. Müxtəlifliyin səbəblərinin izahı isə ayrı mövzudur.

Qeyd etməliyik ki, insanlıq hissiyyatı nə qədər güclüdürsə, onun qarşılaşdığı və ona təsir göstərən məhvedici qüvvələr də bir o qədər güclü olur. Bu, Yer üzərində bütün canlılar üçün elm aləminə məlum olmayan bir qanundur.

*Bunu sübut etmək üçün misallarla izah etməyə çalışacağıq:*

1. Bitkiçiliklə məşğul olan bir sahibkar meyvə bağı salmaq qərarına gəlir, bunun üçün 30 hektar torpaq sahəsində gilas, şaftalı, ərik, alça ağacları əkir. Həmin torpaq sahəsində heç vaxt alaq bitkisi bitməzdi. Bunu nəzərə alaraq mütəxəssislər də həmin ərazini məsləhət bilmişdilər. Burada yetişən meyvələr çox keyfiyyətli olur. Dünyanın heç bir yerində

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

qidalı maddələrlə zəngin olan belə meyvələr yetişdirmək mümkün deyildir. Meyvə ağacları əkildikdən sonra çox güclü inkişaf etməyə başladı. Sahibkar da ağacların belə inkişaf edəcəyini heç gözləmirdi. Lakin cəmi iki ildən sonra həmin meyvə bağında alaq bitkiləri yayılmağa başladı. El arasında kalış, çayır, qamış, suluf kimi adlanan bitkilər bağın hər yerində çox güclü inkişaf etməyə başladı. Halbuki həmin alaq bitkiləri bu torpaqda heç vaxt mövcud olmamışdır. Meyvə ağacları tədricən məhv olmağa başladı. Yalnız çox güclü kimyəvi dərman maddələrindən istifadə edildikdən sonra həmin alaq bitkilərinin qarşısını almaq mümkün olmuşdur. Deməli, bitkilər aləmində də elm aləminə məlum olmayan qüvvələr vardır.

2. Bir dəfə meyvə-tərəvəz bazarında qarpız almaq üçün növbəyə dayandım. Hiss olunurdu ki, satıcı çox mehriban və səmimi insandır. Hamını razı salmağa çalışırdı, məhsulu da münasib qiymətə satırdı. Bu zaman cavan bir oğlan növbəyə dayanmadan satıcıya yaxınlaşdı, qarpızın birini kəsməyi tələb etdi. Satıcı qarpızı kəsdi, hamı dedi ki, qarpız çox keyfiyyətlidir. Lakin həmin oğlan ikinci qarpızı da kəsməyi tələb etdi. Bu zaman növbədə dayanan bütün insanlar oğlandan növbəyə durmağı tələb etdilər. Münaqişə yarandı. Yalnız bütün insanların köməyi ilə həmin cavan oğlan meyvə-tərəvəz bazarından uzaqlaşdırıldı. Bu misalı ona görə qeyd edirik ki, satıcıda insanlıq hissiyyatı yüksəkdir. Cavan oğlanda isə bu hissiyyat mövcud deyildir. Ətrafdakı insanlar olmasaydı, satıcı məhv olmaq təhlükəsi qarşısında qalacaqdı.

Yuxarıda qeyd etdiyimiz bütün misallardan aydın olur ki, insanlıq hissiyyatı ilə məhvedici qüvvələr arasında çox kəskin mübarizə gedir. Bu hissiyyat insanlara Allahın qüdrəti tərəfindən verilmişdir.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 66-69
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 66-69
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

# TƏBİƏT ELMLƏRİ
# NATURAL SCIENCES

**Nazim Məmmədov**
Lənkəran Dövlət Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0003-9047-0654
nazimeko@mail.ru
**Müsafir Hüseynov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-9554-7331
huseynovmusafir00@gmail.com

## Lənkəran təbii vilayəti torpaqlarının kimyəvi xüsusiyyətlərinin yaxşılaşdırılmasında innovativ yanaşmalar

***Açar sözlər:*** *torpaq münbitliyi, biogübrə tətbiqi, nanogübrə texnologiyası, gübrələmə strategiyası, innovativ yanaşmalar*
***Keywords:*** *soil fertility, biofertilizer application, nanofertilizer technology, fertilization strategy, innovative approaches*

Lənkəran təbii vilayəti subtropik iqlimi və müxtəlif relyef xüsusiyyətləri ilə fərqlənir. Burada torpaqların pH səviyyəsi zəif turşu, humus məzmunu isə aşağı qatlarda 0,2–1,5 %, yuxarı qatlarda 2–3 % civarında dəyişir. Makroelementlərdən fosfor, azot və kalium məhdud miqdardadır, xüsusilə azot çatışmazlığı

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

nəzərə çarpır. Mikroelementlərlə bağlı tədqiqatlar azdır, lakin torpağın münbitliyini qoruyub saxlamaq üçün hər iki element qrupu ilə balanslı qidalanma tələb olunur.

Əvvəlki illərdə aparılmış elmi tədqiqatlara əsasən, Lənkəran coğrafi ərazisində yayılmış torpaqların kimyəvi tərkibində bir sıra zəifliklər aşkar edilib. Aparılan araşdırmalar göstərir ki, iqlim dəyişikliyi və insan təsiri nəticəsində bu torpaqların strukturu pozulur və üzvi maddə miqdarı azalır. Məsələn, intensiv əkinçilik və quraqlığın artması nəticəsində torpaqlarda karbonizasiya prosesi sürətlənmiş, nəticədə torpaq məhlulunun reaksiyası zəif turşudan azca qələviləşməyə keçmişdir. Bununla yanaşı, eroziya prosesi və intensiv əkinçiliyin tətbiqi ilə əlaqədar olaraq üst qatdan humus itkisinə səbəb olmuş və humusun miqdarı kəskin azalmışdır. Mineral gübrələrin səmərəsiz istifadəsi torpaqdakı balansı zaman-zaman pozaraq azot–fosfor–kalium kimi makroelementlərin miqdarını aşağı salır. Məsələn, sabit bitki örtüklü sahələrdə aparılan analizlər nəticəsində azot çatışmazlığı, həmçinin fosfor və kaliumun azlığı müşahidə olunub. Bundan əlavə, mineral gübrələrdən uzunmüddətli istifadə torpaq turşuluğunun artmasına və duzlaşmaya gətirib çıxara bilir ki, bu da torpaq keyfiyyətinin azalmasına səbəb olur (Khan et al., 2022).

Bu problemlərin aradan qaldırılması üçün innovativ və müasir texnologiyaların tətbiqi məqsədəuyğun hesab edilmişdir. Əvvəla, biogübrələr, məsələn, mikroblardan ibarət gübrə preparatları və ya vermikompost istifadə edilməlidir. Orqanik əlavələr torpaq strukturunu yaxşılaşdırır, orqanik maddə miqdarını artırır və mineral gübrələrə olan tələbatı azaldır. Aparılmış tədqiqatlardan müəyyən olunub ki, orqanik gübrələrin mineral gübrələrlə kombinasiyası torpağın məhsuldarlığını və keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. Ümumiyyətlə, bio-

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

gübrələr torpaq mikroflorasını canlandıran, ekosistemə zərər verməyən metodlar sırasına daxildir (Mammadov, 2023).

Torpaq kimyasının yaxşılaşdırılmasında digər perspektivli üsullardan biri də nanotexnologiyalardır. Nanoölçülü gübrələr qida elementlərinin tədricən verilməsini mümkün edir. Bununla da azot, fosfor və kalium itkiləri azalır. Nanopartiküllər vasitəsilə bitki mikroelementləri və göbələklər daşınır ki, bu da torpaqdakı duzların yığılmasını azaltmaqla qida maddələrinin bitki tərəfindən mənimsənilməsini artırır. Belə üsullar həm də gübrələrin mənfi təsirini azaldır, bitkilərin qidalanma səmərəliliyini yüksəldir və gübrələmə dövrünü uzadır. Bundan əlavə, nanoölçülü sensorlar vasitəsilə torpaqda real vaxt monitorinqi aparmaq, kationların balansını təyin etmək imkanı yaranır ki, bu da optimal gübrələmə strategiyalarını dəstəkləyir.

Bunlarla yanaşı, inteqrasiya olunmuş gübrələmə sistemləri, yəni üzvi və mineral gübrələrin balanslaşdırılmış şəkildə birgə tətbiqi həyata keçirilməlidir. Bu cür yanaşma ekosistemdəki qida dövriyyəsinin stabilliyini təmin edir. Aparılmış tədqiqatlardan məlum olmuşdur ki, mineral gübrələrin yanında yerli şəraitə uyğun üzvi gübrələrdən istifadə edilməsi əhəmiyyətli nəticələr verir. Bunların qarşılıqlı istifadəsi torpaq orqanik maddəsini artırır, su tutma qabiliyyətini yaxşılaşdırır, eyni zamanda bitkilərin qidalanma balansını düzəldir.

Lənkəran təbii vilayətində son illərdə həyata keçirilən tədqiqatlar da yuxarıda qeyd edilən problemlərə yönəlib. Aparılan tədqiqatlardan müəyyən olunub ki, iqlim dəyişikliyi və antropogen amillər Lənkəran torpaqlarının üzvi maddə miqdarını azaldır. Nəticədə sarı torpaqlarda karbonizasiya nəticəsində pH zəif turşudan qismən qələvi reaksiyaya çevrilmiş, humus məzmunu isə kəskin azalmışdır. Digər bir araşdırmada Lənkəran–Astara regionunun boz-qəhvəyi torpaqlarında aparılan monitorinq nəticəsində humusun 0–10 sm qatında 2,09 %-dən 50–70

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

sm qatında 1,35 %-ə qədər mülayim azaldığı göstərilmişdir. Bu tədqiqat həmin torpaqların zəif turş reaksiya şəraitində olduğunu göstərir. Həmçinin Lənkəran təbii vilayəti üzrə aparılan tədqiqatlar nitratlarla zəngin gübrələmənin ehtiyatla aparılmalı olduğunu göstərir.

Bütün bunlar göstərir ki, Lənkəran torpaqlarının inkişafı məqsədilə yerli elmi müəssisələr biogübrələrin tətbiqi və gübrə bölgüsü sistemləri üzərində iş aparır. Son illər aparılan tədqiqatlar göstərir ki, biogübrələr, nanotexnologiyalar və inteqrasiya olunmuş gübrələmə metodları Lənkəran torpaqlarının kimyəvi göstəricilərini yaxşılaşdırmaq üçün perspektivli hesab olunur və onların səmərəliliyi lokal tədqiqatlarla təsdiqlənmişdir. Nanotexnologiya sistemlərinin tətbiq olunması kənd təsərrüfatında torpağın üzvi maddələrlə zəngin olan humus qatının keyfiyyət və kəmiyyət göstəricilərini artırmaqla yanaşı, eyni zamanda ətraf mühitə olan təsirləri azaldır (Qasımov və b., 2019).

## Ədəbiyyat

1. Khan, A., et al. (2022). Nano-fertilizers and soil nutrient efficiency: Emerging approaches in soil chemistry. *Journal of Soil Science and Plant Nutrition, 22*(4), 1750–1764.
2. Mammadov, G. (2023). Cənub zonasının torpaqlarında biogübrələrin istifadəsinin kimyəvi göstəricilərə təsiri. *Aqrar İnnovasiyalar Məcmuəsi, 2*(1), 37–45.
3. Qasımov, A., Əliyev, R., & Hüseynov, Ş. (2019). Lənkəran-Astara bölgəsində torpaq humusu və kimyəvi göstəricilərin dəyişmə dinamikası. *Azərbaycan Torpaqşünaslıq Jurnalı, 3*(1), 45–52.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 70-72**
*Scientific Resources* **XXV Republican Scientific Conference / 15 january 2026 / 70-72**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Günay Abbasova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0002-5816-7957
gunay.abbasova@adau.edu.az
**Şövkət Qurbanlı**
Azərbaycan Dövlət Aqrar Universiteti
bakalavriat
https://orcid.org/0009-0006-0333-901X
sovktqurbanli082@gmail.com
**Fidan İsayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
bakalavriat
fidanisayeva99@gmail.com
https://orcid.org/0009-0004-7679-6997

# Torpaq amillərinin ekoloji mahiyyəti və buğda bitkisi ilə qarşılıqlı əlaqəsi

***Açar sözlər:*** *torpaq ekosistemi, buğda bitkisi, pH göstəricisi, torpağın nəmlik rejimi, ekoloji amillər*
***Keywords:*** *soil ecosystem, wheat plant, pH value, soil moisture regime, ecological factors*

Torpaq aqroekosistemlərin əsas struktur və funksional elementi olmaqla, bitkilərin inkişafına və məhsuldarlığına birbaşa təsir göstərən mühüm ekoloji amildir (Əliyev, 2015).

Məqalədə torpaq amillərinin ekoloji mahiyyəti və buğda bitkisi ilə qarşılıqlı əlaqəsi elmi baxımdan təhlil edilmişdir. Torpağın pH göstəricisi, nəmlik rejimi, struktur xüsusiyyətləri və bioloji aktivliyi buğda bitkisinin böyümə mərhələlərinə təsir edən əsas ekoloji faktorlar kimi qiymətləndirilmişdir. Tədqiqat materiallarının təhlili göstərir ki, torpaq mühitində baş verən ekoloji dəyişikliklər buğdanın adaptasiya imkanlarını, fizioloji

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

proseslərini və məhsuldarlığını əhəmiyyətli dərəcədə dəyişir. Məqalədə həmçinin torpaq–bitki qarşılıqlı əlaqəsinin ekoloji aspektləri və davamlı buğda istehsalı üçün torpaq resurslarının qorunmasının zəruriliyi əsaslandırılmışdır (Quliyev, 2016).

Torpaq canlı və cansız komponentlərin qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb ekoloji sistemdir. Aqroekosistemlərdə torpaq bitkilərin qida maddələri, su və hava ilə təmin olunmasında əsas rol oynayır. Bu baxımdan torpaq amillərinin ekoloji xüsusiyyətlərinin öyrənilməsi kənd təsərrüfatı bitkilərinin, xüsusilə də buğdanın inkişaf mexanizmlərinin daha dərindən dərk olunmasına imkan yaradır. Buğda (*Triticum* spp.) dünya miqyasında strateji ərzaq bitkisi hesab olunur və onun məhsuldarlığı torpaq mühitinin ekoloji vəziyyətindən birbaşa asılıdır (Əliyeva, 2017). Torpağın ekoloji mahiyyəti onun fiziki, kimyəvi və bioloji xüsusiyyətlərinin vəhdəti ilə xarakterizə olunur. Torpaq strukturu və mexaniki tərkibi kök sisteminin inkişafına, su-hava rejiminin formalaşmasına təsir edir. Kimyəvi xüsusiyyətlər, xüsusilə torpağın pH göstəricisi, qida maddələrinin bitkilər üçün əlçatanlığını müəyyən edən əsas parametrlərdəndir. Optimal pH səviyyəsindən kənarlaşmalar bitkilərdə maddələr mübadiləsinin pozulmasına və ekoloji stressin yaranmasına səbəb olur (İsmayılov, 2012).

Torpaq nəmlik rejimi ekosistemdə maddələr dövranının intensivliyini tənzimləyən mühüm ekoloji faktordur. Nəmlik çatışmazlığı buğda bitkisində transpirasiyanı və fotosintezi zəiflədir, artıq nəmlik isə kök sistemində anaerob şərait yaradır. Bu amillər torpaq mühitinin ekoloji balansının pozulmasına gətirib çıxarır.

Buğda bitkisi orta dərəcədə rütubətli və neytral reaksiyalı torpaqlarda daha yaxşı inkişaf edir. Onun kök sistemi əsasən torpağın üst qatlarında yerləşdiyindən torpaq mühitindəki dəyişikliklərə həssasdır. Torpağın deqradasiyası, turşulaşması və ya

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

şoranlaşması buğdanın inkişafını məhdudlaşdıran əsas ekoloji problemlərdən hesab olunur. Buğdanın ekoloji adaptasiya qabiliyyəti torpaq münbitliyi və düzgün aqroekoloji idarəetmə ilə sıx bağlıdır (Məmmədov, 2018). Torpaq və buğda bitkisi arasında qarşılıqlı əlaqə davamlı aqroekosistemlərin formalaşmasında mühüm rol oynayır. Bitki kökləri torpağın mikrobioloji aktivliyini artıraraq maddələr dövranında iştirak edir. Lakin intensiv və düzgün planlaşdırılmamış kənd təsərrüfatı fəaliyyəti torpaq ekosistemində ekoloji tarazlığın pozulmasına səbəb olur. Bu səbəbdən torpaq resurslarının qorunması və ekoloji əsaslarla idarə olunması buğda istehsalının davamlılığı üçün vacib şərtdir (Həsənov, 2014).

Aparılan təhlillər göstərir ki, torpaq amillərinin ekoloji mahiyyəti buğda bitkisinin inkişafında həlledici əhəmiyyətə malikdir. Torpağın pH göstəricisi, nəmlik rejimi və bioloji aktivliyi buğdanın məhsuldarlığını və ekoloji davamlılığını müəyyən edir. Bu amillərin elmi əsaslarla qiymətləndirilməsi və düzgün idarə olunması davamlı aqroekosistemlərin yaradılmasına və ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaradır.

## Ədəbiyyat

1. Əliyev, B. H. (2015). *Torpaqşünaslığın əsasları*. Elm nəşriyyatı.
2. Əliyeva, S. A. (2017). *Torpaq münbitliyi və bitki qidalanması*. Müəllim nəşriyyatı.
3. Həsənov, Ə. H. (2014). *Kənd təsərrüfatı torpaqlarının ekoloji qiymətləndirilməsi*. ADPU nəşriyyatı.
4. İsmayılov, İ. M. (2012). *Bitki fiziologiyası*. Elm nəşriyyatı.
5. Məmmədov, Q. Ş. (2018). *Aqroekologiya*. Təhsil nəşriyyatı.
6. Quliyev, M. M. (2016). *Torpaq ekologiyası və münbitliyin qorunması*. Elm və Təhsil nəşriyyatı.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 73-77**
*Scientific Resources* **XXV Republican Scientific Conference / 15 january 2026 / 73-77**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Aynurə Səfərova**
2 Nömrəli Kliniki Psixiatriya Xəstəxanası
https://orcid.org/0000-0002-2198-9116
safarova86aynur@gmail.com

# II Qarabağ müharibəsi iştirakçılarında stress və posttravmatik reaksiyaların psixoloji təhlili

***Açar sözlər:*** *II Qarabağ müharibəsi, müharibə iştirakçıları, stress, posttravmatik stress pozuntusu, psixoloji travma, psixoloji vəziyyət, emosional gərginlik, psixoloji reabilitasiya, psixi sağlamlıq, hərbi stress*

***Keywords:*** *Second Karabakh War, war participants, stress, post-traumatic stress disorder (PTSD), psychological trauma, psychological state, emotional tension, psychological rehabilitation, mental health, military stress*

II Qarabağ Müharibəsi iştirakçılarında müşahidə olunan psixoloji dəyişikliklər əsasən ekstremal stressorların təsiri altında formalaşan kompleks psixodinamik proseslərlə xarakterizə olunur. Döyüş şəraitində uzunmüddətli psixoemosional yüklənmə, həyati təhlükənin davamlı qavranılması və travmatik hadisələrlə birbaşa təmas fərdlərdə stress cavab mexanizmlərinin aktivləşməsinə səbəb olmuşdur. Bu vəziyyət hipotalamo-hipofizar-adrenal oxun həddindən artıq stimullaşması ilə müşayiət olunaraq emosional tənzimləmə pozuntularına, təşviş reaksiyalarının artmasına və vegetativ sinir sistemi disfunksiyalarına yol açmışdır.

Müharibədən sonrakı mərhələdə bir sıra iştirakçılarda posttravmatik stress reaksiyalarının davamlı xarakter alması müşahidə edilir. Bu reaksiyalar intruziv simptomatika, emosional uyuşma, hiperarousal vəziyyəti və davranış qaçınması ilə

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

özünü göstərir. Travmatik xatirələrin qeyri-iradi şəkildə aktuallaşması, yuxu strukturlarının pozulması və affektiv sahədə labillik psixoloji adaptasiya prosesini əhəmiyyətli dərəcədə zəiflədir. Eyni zamanda kognitiv sahədə diqqətin davamlılığının azalması, operativ yaddaşın zəifləməsi və neqativ avtomatik düşüncələrin formalaşması müşahidə oluna bilər.

Patopsixoloji baxımdan bu hallar şəxsiyyətin stressə davamlılıq potensialının azalması, coping mexanizmlərinin qeyri-effektivliyi və emosional resursların tükənməsi ilə əlaqələndirilir. Sosial münasibətlərdə desadaptasiya, interpersonal məsafənin artması və affektiv izolyasiya meylləri iştirakçıların sosial funksionallığını məhdudlaşdırır. Bu kontekstdə psixodiaqnostik qiymətləndirmə zamanı kliniki müsahibə, standartlaşdırılmış psixometrik testlər və müşahidə metodlarının kombinasiyalı tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

II Qarabağ Müharibəsi iştirakçılarında müşahidə olunan stress və posttravmatik reaksiyalar döyüş şəraitində yaşanan travmatik hadisələrin psixi sağlamlığa uzunmüddətli təsirinin nəticəsi kimi qiymətləndirilir (Əliyev, 2021).

Terapevtik aspektdən psixoloji müdaxilələr əsasən travma-fokuslu yanaşmalar, emosional tənzimləmənin bərpası və adaptiv coping strategiyalarının formalaşdırılmasına yönəlir. Psixoloji reabilitasiya prosesinin məqsədi posttravmatik simptomatikanın intensivliyinin azaldılması, psixi sabitliyin təmin olunması və fərdin sosial reinteqrasiyasının dəstəklənməsidir. Elmi əsaslandırılmış psixoterapevtik yanaşmaların tətbiqi II Qarabağ Müharibəsi iştirakçılarının psixi sağlamlığının qorunmasında və uzunmüddətli psixoloji nəticələrin minimallaşdırılmasında mühüm rol oynayır.

II Qarabağ Müharibəsi iştirakçılarında psixoloji vəziyyətin formalaşması döyüş şəraitində təsir göstərən çoxsaylı psixoloji gərginlik amilləri ilə şərtlənir. Uzunmüddətli təhlükə hissi,

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

qeyri-müəyyənlik, həyat üçün real risk və emosional sarsıntılar psixikanın uyğunlaşma imkanlarını ciddi şəkildə sınağa çəkmişdir. Bu amillərin təsiri nəticəsində psixoloji tarazlıq pozulur, emosional və iradi sahədə müxtəlif dəyişikliklər meydana çıxır. Döyüş şəraitində yaranan gərginlik vəziyyəti bəzən müharibədən sonrakı dövrdə də davam edərək psixi sağlamlığın zəifləməsinə səbəb olur.

Kliniki-psixopatoloji baxımdan müharibə iştirakçılarında emosional pozuntular, təşviş halları, affektiv gərginlik və davranış dəyişiklikləri müşahidə edilir. Emosional sahədə qeyri-sabitlik, ani əsəbilik, həyəcanlılıq və ya emosional sönüklük halları qeydə alına bilər. Bəzi iştirakçılarda yuxu rejiminin pozulması, daimi yorğunluq hissi, diqqətin azalması və bədənlə bağlı şikayətlər ortaya çıxır. Bu cür əlamətlər psixikanın uzunmüddətli gərginliyə verdiyi cavab reaksiyaları kimi qiymətləndirilir.

Patopsixoloji təhlil göstərir ki, müharibə iştirakçılarında idrak proseslərinin fəaliyyətində müəyyən zəifləmələr baş verə bilər. Xüsusilə diqqətin davamlılığı, yaddaşın funksional imkanları və düşüncə proseslərinin çevikliyi azalır. Mənfi düşüncə meyllərinin güclənməsi, gələcəyə qarşı inamsızlıq və özünə dəyərin aşağı qiymətləndirilməsi halları psixoloji uyğunlaşma prosesini çətinləşdirir. Bu dəyişikliklər fərdin psixoloji dözümlülüyünün azalmasına və stresə qarşı müqavimət imkanlarının zəifləməsinə gətirib çıxarır.

Stress və posttravmatik reaksiyaların formalaşması fərdlərin emosional və sosial adaptasiyasına mənfi təsir göstərir (Qasımova, 2020).

Sosial-psixoloji aspektdə müharibə iştirakçılarında cəmiyyətlə qarşılıqlı münasibətlərdə müəyyən çətinliklər müşahidə olunur. Sosial ünsiyyətdən uzaqlaşma, ailədaxili münasibətlərdə gərginlik, emosional məsafənin artması adaptasiya prosesinə

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 73-77
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 73-77
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

mənfi təsir göstərir. Sosial dəstəyin kifayət qədər olmaması psixoloji vəziyyətin ağırlaşmasına səbəb olan mühüm amillərdən biri hesab olunur. Sosial mühitin dəstəkləyici olmaması psixi bərpanın gecikməsinə gətirib çıxara bilər.

Psixodiaqnostik qiymətləndirmə zamanı kliniki müşahidə, psixoloji müsahibə və ölçmə metodlarının tətbiqi psixoloji vəziyyətin obyektiv dəyərləndirilməsinə imkan yaradır. Psixoloji gərginliyin səviyyəsinin, posttravmatik əlamətlərin intensivliyinin və psixi resursların müəyyən edilməsi fərdi reabilitasiya planının hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır. Diaqnostik prosesdə travmatik təcrübənin subyektiv qavranılması və fərdi xüsusiyyətlər xüsusi diqqət tələb edir.

Terapevtik baxımdan psixoloji müdaxilələr travmatik təcrübənin emalına, emosional sabitliyin bərpasına və psixi uyğunlaşmanın gücləndirilməsinə yönəlir. Psixoloji reabilitasiya mərhələli şəkildə aparılmalı, fərdin emosional vəziyyətinin normallaşdırılması ilə yanaşı onun sosial həyata yenidən inteqrasiyasını da təmin etməlidir. Elmi əsaslara söykənən psixoloji yardım müharibə iştirakçılarının psixi sağlamlığının qorunmasında və həyat keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Aparılan psixoloji təhlil göstərir ki, II Qarabağ Müharibəsi iştirakçılarında müşahidə olunan psixoloji dəyişikliklər müharibə şəraitində yaşanan uzunmüddətli gərginlik və travmatik təcrübələrlə birbaşa əlaqəlidir. Döyüş mühiti, həyat üçün real təhlükə və emosional sarsıntılar psixikanın uyğunlaşma mexanizmlərini zəiflədərək stress və posttravmatik reaksiyaların formalaşmasına şərait yaratmışdır. Bu reaksiyalar fərdlərin emosional sabitliyinə, idrak fəaliyyətinə və sosial münasibətlərinə mənfi təsir göstərmişdir.

Tədqiqat nəticələri onu göstərir ki, müharibə iştirakçılarında emosional pozuntular, təşviş halları, yuxu problemləri və psixoloji gərginlik geniş yayılmışdır. Bu əlamətlər psixoloji

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

uyğunlaşmanın pozulmasına və psixi sağlamlığın zəifləməsinə gətirib çıxarır. Patopsixoloji baxımdan diqqət, yaddaş və düşüncə proseslərində müşahidə olunan dəyişikliklər fərdlərin gündəlik fəaliyyətinə və sosial funksionallığına əhəmiyyətli dərəcədə təsir edir.

Eyni zamanda sosial mühit və ailə dəstəyi psixoloji vəziyyətin formalaşmasında mühüm rol oynayır. Sosial izolyasiya və ünsiyyət problemləri posttravmatik əlamətlərin dərinləşməsinə səbəb ola bilər. Bu baxımdan psixoloji reabilitasiya tədbirlərinin yalnız fərdi səviyyədə deyil, həm də sosial müstəvidə aparılması zəruridir.

Müharibə iştirakçılarında psixi sağlamlığın qorunması və reabilitasiyası məqsədilə sistemli psixoloji müdaxilələrin tətbiqi vacib hesab olunur (Məmmədov, 2022).

Nəticə etibarilə, II Qarabağ Müharibəsi iştirakçılarının psixi sağlamlığının qorunması və bərpası məqsədilə elmi əsaslara söykənən psixoloji diaqnostika və reabilitasiya proqramlarının tətbiqi vacibdir. Vaxtında göstərilən psixoloji yardım posttravmatik reaksiyaların azalmasına, emosional sabitliyin bərpasına və iştirakçıların cəmiyyətə uğurlu şəkildə inteqrasiyasına şərait yaradır.

## Ədəbiyyat

1. Əliyev, R. Ə. (2021). *Müharibə şəraitində psixoloji travma və onun nəticələri*. Elm və Təhsil.
2. Məmmədov, T. R. (2022). *Hərbi münaqişələr və psixi sağlamlıq problemləri*. Azərbaycan Dövlət Nəşriyyatı.
3. Qasımova, L. M. (2020). *Stress və posttravmatik reaksiyaların psixoloji əsasları*. ADPU nəşriyyatı.

*Elmi Qaynaqlar* **XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 78-79**
***Scientific Resources*** **XXV Republican Scientific Conference / 15 january 2026 / 78-79**
**https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026**

**Sənan Əzizov**
Lənkaran Dövlət Universeti
https://orcid.org/0009-0005-7905-7695
ezizov.senan.1958@mail.ru
**Murad Qarayev**
Lənkaran Dövlət Universeti
magistrant
https://orcid.org/0009-0000-9042-7857
qarayevmurad627@gmail.com

# Coğrafiyada praktik işlər və təcrübə məşğələlərinin tədris prosesində əhəmiyyəti

***Açar sözlər:*** *praktik işlər, təcrübə məşğələləri, tətbiqi təlim, tədqiqat bacarıqları, fəal öyrənmə*
***Keywords:*** *practical work, internships, applied learning, research skills, active learning*

Müasir təhsil sistemində şagirdlərin yalnız nəzəri biliklərlə kifayətlənməsi kifayət hesab edilmir. Coğrafiya fənninin tədrisində praktik işlər və təcrübə məşğələləri biliklərin möhkəmləndirilməsi, onların real həyatla əlaqələndirilməsi və şagirdlərdə tədqiqat bacarıqlarının formalaşdırılması baxımından mühüm rol oynayır. Bu cür məşğələlər şagirdlərin xəritə ilə işləmək, diaqram və qrafiklər tərtib etmək, müşahidə aparmaq, təbii obyekt və prosesləri təhlil etmək kimi bacarıqlarını inkişaf etdirir.

Praktik işlər zamanı şagirdlər əldə etdikləri nəzəri bilikləri tətbiq edir, nəticələr çıxarır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirirlər. Bu isə onların məntiqi təfəkkürünü, müstəqil düşünmə və problem həll etmə qabiliyyətini gücləndirir (Əliyev, 2019). Təcrübə məşğələləri coğrafi proseslərin modelləşdiril-

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

məsi, sadə təcrübələrin aparılması və müşahidələrin nəticələrinin ümumiləşdirilməsi yolu ilə dərsin daha maraqlı və anlaşılan keçməsinə şərait yaradır.

Eyni zamanda praktik məşğələlər şagirdlərin fənnə marağını artırır, onları aktiv təlim prosesinə cəlb edir və əməkdaşlıq bacarıqlarını formalaşdırır. Müəllim üçün isə bu fəaliyyətlər şagirdlərin bilik səviyyəsini və bacarıqlarını qiymətləndirmək, fərdi yanaşma tətbiq etmək üçün geniş imkan yaradır. Coğrafiya tədrisində praktik işlərin sistemli təşkili fənlərarası əlaqələrin qurulmasına, xüsusilə fizika, biologiya və riyaziyyatla inteqrasiyaya da şərait yaradır (Kurikulum, 2014).

Beləliklə, coğrafiya dərslərində praktik işlər və təcrübə məşğələləri şagirdlərin biliklərinin dərinləşdirilməsinə, tədqiqat və tətbiqi bacarıqlarının inkişafına, eləcə də fənnə marağın artırılmasına xidmət edir və tədris prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəldir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2014). *Ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə kurikulum*.
2. Əliyev, Ə. Ə. (2019). *Coğrafiyanın tədrisi metodikası*. Elm və Təhsil.
3. Həsənov, M. H. (2018). *Coğrafiya dərslərində praktik işlərin təşkili*. ADPU nəşriyyatı.

*Elmi Qaynaqlar* XXV Respublika Elmi Konfransı / 15 yanvar 2026 / 80-82
*Scientific Resources* XXV Republican Scientific Conference / 15 january 2026 / 80-82
https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Samur Alirzayev**
Azerbaijan State Oil and Industry University
PhD student
https://orcid.org/0009-0005-5854-913X
sam.alirzayev@gmail.com

## Chemical Treatment Methods to Prevent Sand Production

***Keywords:*** *sand production, consolidation, nanoparticles, hydrogel, resin*
***Açar sözlər:*** *qum təzahürü, konsolidasiya, nanohissəciklər, hidrogel, qatran*

Sand production is one of the main problems faced by the oil and gas industry. This problem causes certain operational complications, such as the formation of sand plugs in the wellbore and erosion of downhole equipment, ultimately leading to a decrease in well productivity. To prevent sand production, certain sand control methods are used. One such method is chemical sand control. This method is based on the use of specialized chemical reagents to consolidate sand grains in the wellbore zone. Thermal, hydrogel and resin methods, and nanoparticle methods can be used to consolidate the wellbore zone (Safaei et al., 2023).

**Thermal method.** By oxidizing crude oil in the near-wellbore zone, sand particles are consolidated. This method involves injecting hot air into the near-wellbore zone, which

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

oxidizes the crude oil. During the oxidation process, the viscosity of the oil increases, which ultimately leads to the formation of resin, which is capable of connecting sand particles together, preventing further destruction of the near-wellbore zone during the production.

**Nanoparticle-based method.** Nanotechnology is a key area of science and technology, enabling researchers to introduce and implement new methods to solve problems in the oil and gas industry. The development and production of nanoscale materials is of significant interest in this field. This technology is enabling the creation and implementation of new sand control methods. Metal oxide nanoparticles such as $ZrO_2$, $TiO_2$, $CeO_2$, and $SiO_2$ are widely used for sand control due to their improved mechanical properties. Silica nanoparticles, which exhibit high mechanical strength and hydrophilic properties, are the most widely used. The high hydroxyl content on the surface of silica nanoparticles provides stable chemical and mechanical resistance to harsh reservoir conditions.

**Hydrogel-based method.** Some studies have been conducted using hydrogels in chemical sand control methods. One of the main advantages of hydrogels is their adjustable viscosity, which allows for high pumpability. The use of a hydrogel based on polyacrylamide and chromium triacetate significantly increases the compressive strength of the rock.

**Resin-based method.** Epoxy resins are primarily used for near-wellbore formation consolidation. There are various types of epoxy resins, selected depending on the formation conditions in the near-wellbore zone. Due to their effectiveness, resins are most widely used for sand control. To reduce the negative impact of sand, it is necessary to employ sand control methods. One effective method for controlling sand production is consolidation of the near-wellbore zone.

https://doi.org/10.36719/2663-4619/XXV/RK/Eİ/2026

## References

1. Safaei, A., Asefi, M., Ahmadi, M., Pourshamsi, T., Baloochestanzadeh, S., Khalilnezhad, A., & Riazi, M. (2023). Chemical treatment for sand production control: A review of materials, methods, and field operations. *Petroleum Science*.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Nurlana Kazımova**
Süni intellektin yaranması və başqa elm sahələri ilə əlaqələri.. 7
**Elgün İbrahimzadə**
Azərbaycanca: prezidentlik sisteminin institusional üstünlükləri: müasir demokratik idarəetmədə strukturun rolu .. 9
**Nazrin Rahmanova**
Key Criteria for the Identification of Phraseological Units in Modern French ........ 14
**Tural Gojayev**
Inclusive Growth in the Economy of Azerbaijan after Independence: Drivers, Challenges, and Perspectives............ 18
**Lalə Mirzəyeva**
Azərbaycan və dünyada siyasi onomastika ........ 23
**Fatimə Qasımova**
Təhsil sektorunda HRM-in beynəlxalq təcrübəsi və milli kontekstdə tətbiqi ........ 28
**Ramil Usubov**
Təhlükəsizlik dilemmasının regional gərginliklərin artmasında rolu ........ 32
**Aysel Aslanova**
Seyid Əzim Şirvaninin ədəbi irsinin tədqiqat aspektləri və ədəbiyyatımıza təsiri ........ 36
**Günel Davidova**
Dramatik əsərlərin müqayisəli təhlili və tədrisdə tətbiqi ......... 39

**Emil Qasımov**
Qanuni hərbi hədəflərin müəyyən edilməsi zamanı beynəlxalq səviyyədə mövcud çətinliklər: real hallar və hüquqi məsuliyyət ........ 43
**Günay Vəliyeva**
Alman dilində feillərin kateqoriyaları və onların tədrisində metodik yanaşmalar ........ 46
**Gülnarə Məmmədova, Məhəmməd Əliyev**
XI sinifdə coğrafiya fənninin tədrisində innovativ yanaşmalar, interaktiv metodlar və İKT-dən istifadənin əhəmiyyəti ........ 50
**Rahib Nəsirov**
Azərbaycanda xalq təbabəti məhsullarının innovativ inkişaf istiqamətləri (Herba Flora şirkətinin timsalında) ........ 52
**Nərmin Məmmədova**
Pedaqoji monitorinq və qiymətləndirmənin tədris keyfiyyətinə təsiri ........ 55
**Həqiqət Əsgərova**
Klassik Azərbaycan ədəbiyyatında arxaik əvəzliklərin müasir dildə izi ........ 59
**Tahə İbrahimov**
İnsanlıq hissiyyatı tədricən doğrudanmı məhv olur? ........ 62

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Nazim Məmmədov, Müsafir Hüseynov**
Lənkəran təbii vilayəti torpaqlarının kimyəvi xüsusiyyətlərinin yaxşılaşdırılmasında innovativ yanaşmalar ........ 66
**Günay Abbasova, Şövkət Qurbanlı, Fidan İsayeva**
Torpaq amillərinin ekoloji mahiyyəti və buğda bitkisi ilə qarşılıqlı əlaqəsi ........ 70

**Aynurə Səfərova**
II Qarabağ müharibəsi iştirakçılarında stress və posttravmatik reaksiyaların psixoloji təhlili ............................ 73
**Sənan Əzizov, Murad Qarayev**
Coğrafiyada praktik işlər və təcrübə məşğələlərinin tədris prosesində əhəmiyyəti................................................................ 78

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Samur Alirzayev**
Chemical Treatment Methods to Prevent Sand Production..... 80

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: aem.konfrans@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: aem.konfrans@aem.az

İmzalandı: 09.01.2026
Onlayn çap: 15.01.2026
Kağız çapı: 26.01.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 5,5 ç.v.
Sifariş: 127

**"ZƏNGƏZURDA"**
Çap Evində çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

Signed: 09.01.2026
Online publication: 15.01.2026
Paper printing: 26.01.2026
Format: 60x84, 1/16
Stock issuance: 5,5 p.s.
Order: 127

It has been published in the printing house
**"ZANGAZURDA"**
Address: Baku city, Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru